# YENİ AZƏRBAYCAN

2 avqust 2025-ci il, şənbə
№ 134 (6961)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Zəngəzur dəhlizi: regional əhatə, qlobal mahiyyət...

## Dəhlizi manipulyasiya edənlərin məqsədi nədir?



Bax səh. 3

# Azərbaycanın xarici dövlət borcu azalıb

Bax səh. 4

## Köhnə a(y)vaz, köhnə tas(s)






Bax səh. 2

# Tarixi toponimlərə səlib yürüşü

Bax səh. 3

# Beynəlxalq Qızıl Xaç Komitəsi Azərbaycanda fəaliyyətini dayandırır

Avqustun 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) missiyası yekunlaşan Azərbaycan nümayəndəliyinin rəhbəri Draqana Koyiçlə ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov xanım Draqana Koyiçə Azərbaycanda fəaliyyəti müddətində əməkdaşlığın inkişafı istiqamətində göstərdiyi səylərə görə təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər görüşdə BQXK-nın ölkəmizdəki son 33 illik fəaliyyəti, Azərbaycanla Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, mina təhdidi, itkin düşmüş şəxslərin aqibəti kimi məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə qarşı tərəf Azərbaycan Hökuməti tərəfindən təşkilatın fəaliyyətinə göstərilən dəstəyə və əməkdaşlığa görə məmnunluğunu ifadə edib. Nümayəndəliyin fəaliyyətini cari il sentyabrın əvvəlində dayandırmasından sonra da BQXK ilə Cenevrədə yerləşən baş qərargah vasitəsilə əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

## Rusiyahlar...
### Pruşkeviçdən zatulinlərə, solovyovlara...

Bax səh. 5

## Ukraynadan Aİ-ni qəzəbləndirən ADDIM

Bax səh. 6

## Altı gün qaldı...
### Donald Trampın Rusiyaya xəbərdarlığı nəticə verəcəkmi?

Bax səh. 7

## Aİ-də liderlik uğrunda mübarizə...

Bax səh. 7

## ABŞ və İsraildən Qəzzaya yardım



Bax səh. 6

## Siyasi korrektə...
### ABŞ Tayvanla əlaqələri niyə kəsir?



Bax səh. 6

# Köhnə a(y)vaz, köhnə tas(s)

Son vaxtlarda qonşu Rusiyada Azərbaycana qarşı başlayan qaragüruh kampaniyasının bir istiqamətini də guya respublikamızda digər mədəniyyətlərə dözümsüz münasibət bəslənilməsi ilə bağlı aparılan sifarişli təbliğat təşkil edir. Hətta dövlət nəzarətində olan mətbuat, yüksəksəviyyəli rəsmilər, parlament təmsilçiləri də bu bədnam kampaniyada sanki bir-birləri ilə yarışa giriblərmiş kimi iştirak edirlər.

Bu günlərdə qeyd olunan qərəzli kampaniyanın tərkib hissəsi olaraq Rusiya Federasiyasının TASS informasiya agentliyi "Stepanakertdə Ayvazovskinin abidəsi söküldü" sərlövhəli xəbər yayıb. Eyni zamanda, Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoy Ayvazovskinin büstünün sökülməsi məsələsinə dair açıqlama verib. Bir qayda olaraq imperialist zehniyyatından çıxış edən deputat Konstantin Zatulin isə İvan Ayvazovskinin heykəlinin sökülməsini "barbarlıq", "dini və tarixi abidələrin dağıdılması" və s. bu kimi adlarla təqdim edib. Mixail Şvıdkoyun, Konstantin Zatulinin gözlərini yumub ağızlarını açaraq Azərbaycan əleyhinə hədyanlar danışmaları yeni bir hal deyil - bu, onların köhnə peşəsi və pis ənənələridir.Onlar Azərbaycanofobiya mərəzinə tutulublar, ölkəmizə hər zaman qara eynək arxasından baxıblar və həmişə də reallıqlarımızla bir araya sığmayan absurd iddialar səsləndiriblər. TASS-ın yaydığı xəbərin məzmunu və sərlövhəsi isə ən azından təəccüb doğurur. Axı lap yaxın keçmişədək Azərbaycanla bu qurum arasında hər hansı bir anlaşılmazlıq yaşanmayıb. İndi isə Rusiyanın rəsmi agentliyinin fərqli mövqedən çıxış etdiyi görünür. Bu, köhnə, bizim tanıdığımız, yaydığı informasiyaları ciddi qəbul etdiyimiz TASS deyil axı. AZƏRTAC-ın uzun onilliklər ərzində daim qoruduğu və yüksək qiymətləndirdiyi mehriban münasibətlər, tərəfdaşlıq və hətta dostluq əlaqələri saxladığı agentliyin rəhbərliyi qəflətən əvvəlki kursunu niyə dəyişib, görəsən? Bu agentlikdəmi şvidkoyların, zatulinlərin cərgəsinə qoşulub?

## Xankəndidə qoyulan bir büstün tarixçəsi

Xankəndidə erməniəsilli rəssam İvan Ayvazovskinin büstünün qoyulmasının tarixi hər kəsə bəllidir. Məlumdur ki, üçtərəfli Bəyanata uyğun olaraq ərazilərimizdə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları fəaliyyətləri dövründə onların səlahiyyətlərinə aid olmayan bir sıra fəaliyyətlərlə də məşğul olublar. 2021-ci il noyabrın 10-da Qarabağda "Rusiya Şöhrət Xiyabanı"nın açılış tədbirinin keçirilməsi də bu qəbildən idi. Mixail Serdyukovun layihəsi əsasında hazırlanan xiyabanda, həmçinin Rusiyanın 10 dahi şəxsinin büstləri qoyulub. Bunlar Aleksandr Nevski, Denis Davıdov, Mixail Lermontov, Qavril Derjavin, Aleksandr Puşkin, Nikolay Karamzin, Lev Tolstoy, Anton Çexov, Vasiliy Şukşin və Mixail Şoloxovun büstləridir.

Xankəndidə erməni əsilli rəssamın büstünün qoyulması da Rusiya sülhməramlılarının ərazilərimizdə özbaşına, bədnam fəaliyyətləri sırasında yer alır. Azərbaycan şəhərində Ayvazovskiyə abidə ucaldılması xoş məramdan uzaq idi. Bunu heç bir halda mədəniyyət hadisəsi kimi dəyərləndirmək olmaz. Rəssam Qarabağda yaşamayıb, bu coğrafiya ilə hansısa bir bağlılığı olmayıb. Həmin abidənin zamanında separatçıların yuvasına çevrilmiş Xankəndidə qoyulması sırf qərəzli siyasi-ideoloji məqsəd daşıyırdı - bununla Rusiya sülhməramlıları, əslində, separatçıları dəstəkləyən, onların dəyirmanına su tökən rolunda çıxış edirdilər. Ermənilərin işğal illərində ərazilərimizdə qanunsuz məskunlaşma apardıqları, tarixi abidələrimizi özününküləşdirməyə cəhd göstərdikləri hər kəsə bəllidir. Qarabağda olan tarixi-mədəni abidələr İslam mədəniyyətinə və xalqımızın xristian keçmişinə aiddir.Ancaq onilliklər ərzində ərazilərimizin məqsədli şəkildə "erməniləşdirilməsi" siyasəti həyata keçirilib. İslam dininə aid abidələr ya məhv edilib, ya da onlardan mal-heyvan tövlələri kimi istifadə olunmaqla təhqirlərə məruz qalıblar. Xristian keçmişimizə aid olan alban-udi abidələri isə divarlarına saxta simvollar həkk edilməklə erməniləşdirilib. Guya, bu ərazilərdə tarixən erməni mədəniyyəti olub. Rusiya sülhməramlıları tərəfindən Xankəndidə Ayvazovskiyə abidə ucaldılması da eyni ssenarinin tərkib hissəsidir. Sülhməramlıların bu addımı atmaqla separatçılara ayı xidməti göstərmələrinin alt qatında isə imperialist məqsədlər dayanırdı. Rusiya həmişə artıq keçmişdə qalan Dağlıq Qarabağ münaqişəsinin sonsuzluğadək uzanmasına çalışıb. Xankəndidə separatizm yuvasının mövcudluğu Rusiya sülhməramlılarının bölgədə qalmaları üçün əsas amil idi. Buna görə də onların fəaliyyəti etimad quruculuğuna yox, ədavətin qızışdırılmasına, separatizmin daha da güclənməsinə xidmət edirdi.

## Məntiqli, düzgün və qanunauyğun addım

Azərbaycan Ayvazovskinin büstünün götürülməsi ilə bağlı Moskvadan gələn qərəzli açıqlamalara, adekvat olamayan reaksiyalara kəskin cavab verib. Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoyun Ayvazovskinin büstünün sökülməsi məsələsinə dair açıqlaması və TASS informasiya agentliyi tərəfindən Azərbaycanın Xankəndi şəhərinin "Stepanakert" adlandırılması ilə bağlı Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə yerli mətbuatın suallarını cavablandırıb. Eyni zamanda, AZƏRTAC bəyanatla çıxış edib. A.Hacızadə bildirib ki, Rusiya Prezidentinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy ilk dəfə deyil ki, müvafiq tapşırıq əsasında anti-Azərbaycan kampaniyasına qoşulur. Fikirlərinə davam edən XİN rəsmisi vurğulayıb ki, "erməniəsilli rəssam İvan Ayvazovskinin büstünün Rusiya sülhməramlıları tərəfindən Azərbaycan tərəfinin icazəsi olmadan torpaqlarımızda quraşdırılması qanunsuz idi. Bu, Azərbaycan Respublikasının suverenliyinə münasibətdə Rusiya tərəfindən hörmətsizliyin təzahürü olub.

Azərbaycan ərazilərinin işğalı zamanı qanunsuz olaraq qoyulmuş bu kimi dırnaqarası abidələrin sökülməsi məntiqli, düzgün və qanunauyğundur.

Cənab Şvıdkoyun guya, Azərbaycanda Rusiya mədəniyyətinin "ləğv edilməsi" iddiaları növbəti yalandır. Baxmayaraq ki, bu sahədə iki ölkə arasında ciddi disparitet mövcuddur, Rusiya mədəniyyətini Azərbaycanda heç kim ləğv etməyib. Belə ki, Azərbaycanda rus teatrı, rus dilində məktəblər, rus dilində nəşrlər olduğu halda, Rusiyada Azərbaycan dilində teatr, məktəblər, qəzet və jurnallar mövcud deyil. Bu disparitetə baxmayaraq, biz Rusiyada Azərbaycan mədəniyyətinin "ləğv edilməsi" iddiası ilə çıxış etmirik. Amma Rusiyanın yüksəkvəzifəli rəsmiləri bilməlidir ki, əgər onların anti-Azərbaycan tədbirləri və açıqlamaları davam edərsə, Azərbaycanla Rusiya arasında qeyd edilən disparitetə düzəlişlər edilməsi istisna olunmur.

Başqa bir məsələni də xatırlatmaq yerinə düşər. Cənab Şvıdkoy bu yaxınlarda işğaldan azad olunmuş ərazilərimizdə səfərdə olub. Ancaq o, səfər çərçivəsində Şuşada Natəvan, Üzeyir Hacıbəyli, Bülbül və Azərbaycanın digər mədəniyyət xadimlərinin abidələrinə qarşı vandalizmi təsdiq edən dağıntılarla tanış olarkən cəsarət tapıb bu halları pisləyən açıqlamalar verməyib. Rusiya rəsmisinin vandalizm əməllərini görməzdən gəlməsi və susması təəssüf doğurur.






## Stepanakert yox, Xankəndi!

Həm XİN rəsmisinin, həm də AZƏRTAC-ın bəyanatında TASS kimi bir agentliyin Azərbaycanın Xankəndi şəhərinin adını Stepanakert kimi təqdim etməsi sərt şəkildə qınanılıb. Rusiya Federasiyasının rəsmi dövlət agentliyi olan TASS-da Azərbaycanın Xankəndi şəhərinin Stepanakert adlandırılması ölkəmizin ərazi bütövlüyünə hörmətsizlik və təhqiramiz addım kimi qiymətləndirilir.

Ermənilərin bu şəhərə iddia etmələrinin heç bir əsası yoxdur. Elə zamanında şəhərə "Stepanakert" adının verilməsi Rusiyanın saxtakarlığı və qərəzli məqsədləri nəticəsində baş tutub. Tarixi mənbələrə əsasən, Xankəndi XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının başçılarının - xanların istirahəti üçün salınıb. Xanların fəaliyyətinə uyğun şərait yaradılması üçün istirahət məskəni xanlığın paytaxtı Pənahabadın (indiki Şuşanın) 10 kilometrliyində, nisbətən dağ ətəyində planlaşdırılır. Bu zaman istirahət məskəninin xanlığın digər vacib şəhər və kəndlərinə, o cümlədən Ağdama, Xocalıya, Malibəyliyə, Kərkicahana və digərlərinə yaxın olması da əsas götürülüb. Bəhs olunan məntəqələrin hamısında istisnasız olaraq azərbaycanlılar yaşayırdılar. İlk vaxtlarda yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından el arasında məhz bu adla tanınıb: Xanın kəndi. Az vaxt ötəndən sonra isə "Xanın kəndi" "Xankəndi" adını alıb. Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın xanımı Pəricahan bəyimə hədiyyə olunub.

Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən çox sayda erməni ailəsinin Qarabağda, o cümlədən də Xankəndidə yerləşdirilməsinə baxmayaraq, yaşayış məntəqəsinin tarixi adı uzun müddət saxlanılıb. Keçmiş sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret verib. Həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olunub. 1923-cü ilin sentyabrında şəhər Stepan Şaumyanın şərəfinə "Stepanakert" adlandırılıb. Hələ 1923-cü ildə Azərbaycanın əzəli torpaqlarında yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətində Xankəndi şəhərinin adının qanunsuz olaraq dəyişdirilərək Azərbaycan xalqına qarşı daşnak ermənilərlə birgə qırğınlar törətmiş bolşevik Stepan Şaumyanın şərəfinə "Stepanakert" adlandırılması Azərbaycana qarşı həqarət idi. Cəmiyyətin tələbini nəzərə alan Azərbaycan SSR Ali Soveti isə 1991-ci ildə bəhs olunan yaşayış məntəqəsinin tarixi adının - Xankəndinin bərpa edilməsi ilə bağlı qərar imzalayıb.

Azərbaycan Ordusunun 2023-cü ilin sentyabr ayında həyata keçirdiyi 23 saatlıq antiterror tədbirlərinin nəticəsi olaraq şəhər onun əsl sahiblərinə qaytarılıb və bununla da tarixi ədalət bərpa olunub. "2023-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəhərin əsas meydanında Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı və son prezident seçkiləri günü - 2024-cü il fevralın 7-də O, bu şəhərdə səs verdi, qutuya atdığı bülleteni "erməni separatçılarının tabutuna vurulmuş son mıx" adlandırdı", - deyə AZƏRTAC-ın bəyanatında vurğulanıb.

## Üzrü qəbahətindən betər

A.Hacızadə Azərbaycan tərəfinin TASS-dan üzürxahlıq və müvafiq düzəliş edilməsini gözlədiyini bildirib. "Əks təqdirdə, qanunvericiliyə uyğun olaraq, TASS-ın Azərbaycanda fəaliyyətinə qarşı müvafiq tədbirlər görülməsi nəzərdə tutulur", - deyə XİN rəsmisi vurğulayıb.

AZƏRTAC isə yaydığı bəyanatda TASS agentliyinin xəbərinin sərlövhəsi və mətninin Azərbaycan cəmiyyətində təəccüb və hətta hiddət doğurduğu diqqətə çatdırılıb. "Rusiya dövlət media orqanının rəhbərliyinin əvvəlki kursdan geri çəkilməsi agentliklərimiz və kollektivlərimiz arasında ənənəvi dostluq münasibətlərini sarsıdır və bütün Rusiya media məkanına təhlükəli siqnal göndərir. Yalnız xoş niyyət və iki agentlik arasında uzunmüddətli əlaqələrin qorunması istəyindən çıxış edən AZƏRTAC TASS-dakı həmkarlarını gələcəkdə bu cür addımları təkrarlamamaq və mümkün fikir ayrılıqlarını dərinləşdirmək əvəzinə, münasibətləri yaxşılaşdırmağa yönəlməyə çağırır", - deyə bəyanatda vurğulanır.

TASS Azərbaycandan gələn tələbləri nəzərə almaqla səhvini düzəltmək jesti edib. Belə ki, agentlik "Stepanakert" sözünü "Dağlıq Qarabağ"la əvəzləyib. Bu düzəlişin bir adı var: Üzürü qəbahətindən betər. Əvvəla, söhbət şəhər adından gedirsə, agentlik düzəlişində "Xankəndi" yazmalı idi. Digər tərəfdən, axı dəfələrlə bəyan edilib ki, Azərbaycanda Dağlıq Qarabağ adda ərazi vahidi yoxdur. Bunlar keçmişdir. Bəs onda TASS niyə keçmişdə qalmaq istəyir? Görünür, Rusiyanın rəsmi informasiya agentliyinin - köhnə TASS-ın yeni reallıqları qəbul etmək istəməməsinə yenə də imperiya təfəkkürü mane olur. Heyhat, reallığı qəbul etmək lazımdır, zamanı geri döndərmək mümkün deyil...

*Mübariz ABDULLAYEV*

# O, əsl Xalq artisti idi...

## Birinci vitse-prezident Mehriban Əliyeva Arif Babayevin vəfatı ilə əlaqədar paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xalq artisti Arif Babayevin vəfatı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib: "Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayevin vəfatı mədəniyyətimiz, bütün xalqımız üçün əvəzsiz itkidir. O, yaşından asılı olmayaraq hər kəsin sevdiyi əsl Xalq artisti idi. Onun məharətlə ifa etdiyi muğamlar milli musiqi irsimizi daha da zənginləşdirmişdir. Arif Babayevin xoş, nurlu xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Allah rəhmət eləsin".

# Zəngəzur dəhlizi: regional əhatə, qlobal mahiyyət...

## Dəhlizi manipulyasiya edənlərin məqsədi nədir?

## İran çıxılmaz vəziyyətdə, Ermənistan isə son qərar ərəfəsində

Post-müharibə dövründə Azərbaycanın yerləşdiyimiz coğrafiya üçün yaratdığı yeni reallıqların ən mühüm konturları əməkdaşlıq, təhlükəsizlik və iqtisadi inkişaf üzərində cəmlənir. Müharibədən dərhal sonra 3+3, Zəngəzur dəhlizi kimi təşəbbüslərlə çıxış edən Azərbaycan məhz regional təhlükəsizlik və əməkdaşlıq predmetləri üzərindən bölgədə yeni münasibətlər sisteminin qurulması üçün səy göstərir. Bu isə öz növbəsində bütün sferalarda gələcək inkişaf trayektoriyalarının istiqamətlənməsinə şərait yaradır. Adıçəkilən təşəbbüslər iqtisadi sferada yeni bir nizama yol açır. Artıq Şərq-Qərb kontenti üzrə əlaqələndirmədə yeni bir yol təqdim edilir. Bu, xüsusilə Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya iqtisadi geostrateji məkanı üçün yeni inkişaf mərhələsi formalaşır. Vurğulandığı kimi, təşəbbüslərin reallaşması ilə ən əsas ştrixlərdən sayılan təhlükəsizlik arxitekturası daha da gücləndəcək və gələcək yüzilliyin proyekti kimi qiymətləndirilən, dünyanın yeni dönəmdə əsas ticarət xətti kimi mahiyyət kəsb edən Şərq-Qərb tranzitinin effektivliyi, etibarlılığı və mahiyyəti oturuşacaq.

## Xaçaturyanın "qapısı" - Zəngəzur sözündən niyə qorxurlar?

Təəssüfləndirici haldır ki, Bakının irəli sürdüyü bu təşəbbüslər, xüsusilə də Zəngəzur dəhlizi ilə bağlı müddəalar bir sıra dövlətlər, daha doğrusu, bəzi siyasi qruplar tərəfindən manipulyasiyaya məruz qalır. Məsələn, bu xəttin mahiyyətini və ölkəsi üçün nələr demək olduğunu yaxşı anlayan Ermənistan siyasi rəhbərliyi min bir cəhdlə əhatə dairəsinə görə regional, mahiyyətinə görə isə qlobal miqyasa malik Zəngəzur dəhlizi üzərindən siyasi oyunlar qurmağa çalışırlar. Belə ki, Ermənistan hakimiyyəti Zəngəzur dəhlizini "Sünik qapısı" adlandırmağa başlayıb. Bu barədə "Past" qəzeti məlumat yayıb. Nəşr yazır ki, Ermənistan hakimiyyəti Zəngəzur dəhlizi ilə bağlı yeni təbliğat kampaniyasına başlayıb. Bildirilir ki, Ermənistan prezidenti Vaaqn Xaçaturyan üç günlük işgüzar səfərlə Sünik vilayətinə (Qərbi Zəngəzur) gedib, burada yerli hakimiyyət orqanları və hüquq-mühafizə orqanlarının əməkdaşları ilə məsləhətləşmələr aparıb və bölgənin ölkənin gələcək inkişafı üçün qapıya çevriləcəyini bəyan edib. "Əgər biz Sünikin qapılarını açа bilsək, 43 kilometrlik (Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında yerləşən -red.) yolu nəzərdə tuturam, bu, gələcək inkişaf baxımından böyük imkanlar təqdim edir", - Xaçaturyan bildirib.

"Ermənistan hökuməti onu "Sünikin qapısı" adlandırmaqla mahiyyət etibarilə Zəngəzur dəhlizi ifadəsinin mənfi təsirini aradan qaldırmağa çalışır", - qəzet yazıb və əlavə edib ki, İrəvan bunu Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında qapı açmaq istəyir.

## Zəngəzur dəhlizi açılacaq - Ermənistan rəhbərliyi bunu anlayır...

Göründüyü kimi, Ermənistan yenə də köhnə "musiqi"dən əl çəkmək istəmir - onlar, Zəngəzur dəhlizini özləri üçün "təhlükə" saymaqla əslində, spekulyasiya edirlər. Çünki Azərbaycan dövləti dəfələrlə bəyan edib ki, bizim heç kimin torpağında gözümüz yoxdur. Bizim tələbimiz Azərbaycandan Azərbaycana, yəni, ölkənin əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa quru əlaqəsinin yaranması və problemsiz hərəkət etməyimizdir. Bu dəhlizin iqtisadi dividendləri bizim üçün Naxçıvanla quru yola paralel xarakter daşıyır. Yəni, ortadakı iqtisadi perspektivlər daha çox Ermənistanı maraqlandırmalı və düşündürməlidir. Zəngəzur dəhlizinin açılmasına mane olan İrəvan bununla özünün dalan ölkə statusunda qalmasını təmin edir. Bir müddət öncə dəhlizin Ermənistandan keçən şissəsinin ABŞ şirkətinə icarəyə verilməsi ilə bağlı məsələni ortaya atan Ermənistan indi fərqli "bəyanat" verir. Görünən budur ki, İrəvan anlayır ki, dəhliz bu və ya digər şəkildə açılacaq - indiki halda, prosesi öz "maraqlarına" uyğun istiqamətləndirməyə çalışırlar.



## Zəngəzur dəhlizinin İrana faydası - Tehran qatı rənglərdən əl çəkməsə...

Zəngəzur dəhlizinə münasibətdə qonşu İran dövlətinin də mövqeyi birmənalı deyil - məsələn, bir müddət əvvəl İran ali rəhbərinin müşaviri Əli Əkbər Vilayəti Zəngəzur dəhlizi ilə bağlı məsələyə toxunaraq bunu ölkəsinin düşmənlərinin "geosiyasi layihə"si kimi dəyərləndirmiş və bildirmişdi: "Bu, müqavimət oxunu zəiflətməyə və İranın Qafqazla əlaqəsini kəsməyə yönəlmiş strateji plandır".

Eyni zamanda, Tehranın İrəvandakı diplomatik korpusunun rəhbəri Mehdi Sübhani də Zəngəzur dəhlizini yenidən "qırmızı xətt" adlandıraraq, hətta ABŞ şirkətinin dəhlizin Ermənistandan keçən hissəsi ilə bağlı təkliflərini qəbuledilməz adlandırmışdı. İran prezidenti Məsud Pezeşkian isə bunların əksinə olaraq bildirib ki, qonşularla yaxşı münasibətlər varsa, İran rəsmiləri Zəngəzur dəhlizinin yaradılması ilə bağlı ciddi narahatlıq keçirməməlidirlər. Pezeşkian fikrini belə davam etdirib: "Qonşular və region ölkələri ilə münasibətlərin, əməkdaşlığın genişləndirilməsinə kompleks şəkildə baxsaq, ölkənin şimal-qərbindəki sərhəd keçidləri problemi də daxil olmaqla, bəzi daha xüsusi məsələlər barədə narahat olmağa dəyməz. Biz qonşularla münasibətlərimizə sərhəd maneələrinin aradan qaldırılması və iqtisadiyyatlarımızın geniş birləşməsi kontekstində baxmalıyıq". O, bu istiqamətdə həssaslığı azaltmalı və konstruktiv qarşılıqlı əlaqələrin genişləndirilməsi barədə düşünməyin vacibliyini vurğulayıb.

Göründüyü kimi, İran dövlətinin bir qism siyasətçiləri Zəngəzur dəhlizini "düşmən" elan edir, digər bir qismi isə layihənin Tehrana da siyasi, iqtisadi və ticari imkanlar qazandıracağına, bölgədə təhlükəsizliyin daha da güclənməsinə yol açacağını düşünür. Proseslərin inkişafı göstərir ki, Vilayətinin "qatı mövqeyi" Zəngəzur dəhlizinin gələcəyi ilə bağlı gedən fəaliyyətə zərrə qədər təsir etmək imkanına malik deyil. Əksinə, İran dövləti və siyasi cameəsi məsələyə Prezident Pezeşkianın irəli sürdüyü "səmimi qonşuluq, təhlükəsiz region" tezisi üzərindən yanaşsa, daha məqbul olacaq.

Prezident Pezeşkianın geridə qalan bir illik prezidentliyi dövründə Zəngəzur dəhlizi də daxil olmaqla Tehranın bölgəsəl məsələlərə yanaşmasının yumşaldılması, reallıqlar üzərindən hərəkət edilməsinin vacibliyi tezisini önə sürdüyünün şahidi oluruq. Bunun əsas səbəblərindən biri isə İranın klassik regional siyasətinin mühüm predmetlərinin sıradan çıxmasıdır. Prezident Pezeşkian Vilayəti və onun kimi düşünənləri izah etməyə çalışır ki, illərdir ki, İranın bölgədə xüsusi maraqlarını qorumaqla "görəvləndirilən" "Hizbullah", Əsəd hakimiyyəti, husi hərəkatı, "Sədr hərəkatı" kimi dayaqları sıradan çıxıb. Zəngəzur dəhlizi Ermənistanla yanaşı həm də İranın gələcək inkişafı üçün "nəfəslik" statusu daşıyı bilər. Azərbaycanın təşbbüsü ilə ortaya çıxan bu layihə Şərq-Qərb kontenti ilə yanaşı Qlobal Cənubun Şərq və Qərb regionları ilə əlaqələrinin gücləndirməsinə də yol aça bilər. Bunun üçün isə Vilayəti və Sübhaninin "bəyanatlarında" əks olunan qatı rənglər aradan qaldırılmalı, İran qonşuları ilə səmimi münasibətlər formalaşdırmalıdır...

***P.İSMAYILOV***

# Tarixi toponimlərə səlib yürüşü

## Tarixin açarı olan yer adları niyə dəyişdirilir?

Toponimləri yalnız coğrafi yer adları anlamında qəbul etmək doğru olmazdı. Toponimlər həm də ölkələrin, xalqların inkişaf yolunu əks etdirir. Təsadüfi deyildir ki, yer adlarını, eyni zamanda, tarixin açarı adlandırırlar.

İlk vaxtlarda insanlar köç etdikləri ərazilərə müxtəlif amilləri nəzərə almaqla adlar veriblər. Zaman ötdükcə isə toponimlər də siyasi önəm daşımağa başlayıb. Tarixi izlədikdə görürük ki, əsasən imperialist mövqedən çıxış edən dövlətlər istilalar nəticəsində ələ keçirdikləri torpaqları özününküləşdirmək məqsədilə onların tarixi adlarını dəyişiblər. Qonşu Rusiyada bir çox toponimlərin dəyişdirlməsi buna əyani sübutdur. Məsələn, bu ölkənin ərazisində olan Orenburq zamanında Orınbor, Volqoqrad Sarısu, Qroznı Solja-Qala, Novorossiysk Sudjuk-Kale, Yujno-Saxalinsk Toyoxara, Yujno-Kurilsk Furukamappu, Petrozavodsk Petroskoy, İjevsk İjkar adlandırılıb.

## Köniqsberq necə Kalininqrad olub?

Bu ərazi II Dünya müharibəsindən sonra SSRİ-nin tərkibinə daxil edilib. 4 iyul 1946-cı ilə qədər şəhər almanca Köniqsberq adını daşıyırdı və daha çox məşhur alman filosofu İmmanuel Kantın doğma şəhəri kimi tanınırdı. Xatırladaq ki, Köniqsberq 1737-ci ildən 1945-ci ilədək Şərqi Prussiya vilayətinin mərkəzi olub.

Bu şəhərin yeni adı Stalinin silahdaşlarından olan, müharibə illərində SSRİ parlamentinin sədri vəzifəsində işləyən və "ümumittifaq ağsaqqalı" ləqəbi daşıyan Mixail Kalininin (1875-1946) soyadından götürülüb. Onun xatirəsini Köniqsberqin adını dəyişməklə əbədiləşdiriblər.

Xatırladaq ki, II Dünya müharibəsinin ən qızğın döyüşlərindən biri bu şəhər uğrunda gedib. Köniqsberqin SSRİ üçün önəmini vurğulamaq üçün sadəcə bir faktı qeyd etmək kifayətdir. Stalin bir neçə min tank və təyyarə ilə dəstəklənən 1,5 milyon sovet əsgərinə Köniqsberqi ələ keçirməyi əmr edib. Almanların xüsusi möhkəmləndirilmiş diviziyaları Köniqsberq qalasını işğaldan xilas edə bilməyib. Bu qələbə Moskvada 324 topun hər birindən 24 dəfə yaylım atəşi açmaqla möhtəşəm şəkildə qeyd olunub. Hitler Almaniyası iflasa uğrayıb. 1944-1950-cı illərdə Şərqi Avropadan 12-14 milyon alman qovulub və onlar Qərbi və Mərkəzi Almaniyaya yerləşdirilib. Böyük köç zamanı 2 milyondan çox alman yollarda can verib...

Ancaq almanlar tarixi unutmurlar və nə vaxtsa doğma şəhərlərinin geri qaytarılacağına inanırlar. Hazırda Almaniyada ölkənin 1937-ci ildəki sərhədlərini yenidən bərpa etməyi hədəfləyən qrupların fəallığı artıb. Onlar Rusiyadan qisas almaq və tarixi ərazilərini geri qayratmaq üçün daha əlverişli məqam gözləyirlər. O cümlədən indi Almaniyada bir çoxları düşünür ki,Ukrayna müharibəsi onlar üçün tarixi fürsət yaradıb.

Yeri gəlmişkən, daha bir faktı da yada salmaq yerinə düşər. Keçmiş SSRİ tərəfindən 1939-1940-cı illərdə ilhaq edilmiş Finlandiyanın Qərbi Kareliya, Petsamo, Estoniyanın Eston İnqiriyasl və Peteseri, həmçinin Latviyanın Abren bölgələri 1991-ci ildə Sovet İttifaqının süqutundan sonra belə Rusiya Sovet Federativ Sosialist Respublikasının varisi olan Rusiya Federasiyasının ərazisi olaraq qalır. Qeyd olunan ərazilərdəki bir sıra yaşayış məntəqələrinin də adları dəyişdirilib.

Leninqrad vilayətindəki Kinqisepp şəhərinin tarixi adı isə Yamburq olub. Ərazi 1922-ci ildən etibarən Kinqisepp toponimi ilə adlandırılıb. Son illərdə hər iki şəhərin tarixi adlarının geri qaytarılması uğrunda hərəkat başlayıb. Belə ki, Estoniya parlamentinin xarici əlaqələr komitəsi sovet dövründə Kaliningrad adlandırılmış qədim Köniqsberq şəhərinin adının bərpa olunması ilə bağlı qərar qəbul edib. Estoniyalı deputatlar, həmçinin Kinqisepp şəhərinin Yamburq və ya Yaama adlandırılması təklifi ilə çıxış ediblər.

Kaliningrad toponiminə Polşanın yanaşması da fərqlidir. Polyaklara tövsiyə edilib ki, bir daha Kaliningradın rus adından istifadə edilməsin. Coğrafi Adların Standartlaşdırılması üzrə Dövlət İdarəsi Polşa əhalisinə Rusiyanın bu şəhəri üçün "Krulewiec" adından istifadə etməyi təklif edib. 2023-cü il 9 may tarixində departament bildirib ki, ölkənin baş geodeziyaçısı yanında fəaliyyət göstərən Xarici Coğrafi Adların Standartlaşdırılması üzrə Komissiya "qərara gəlinib ki, şəhər üçün yalnız Polşa adından - "Krulevets" toponimindən istifadə etmək tövsiyə edilir". Sərəncam dərhal, qüvvəyə minib. İndi polyaklar da "Kaliningrad vilayəti" deyil, "Krulevetskaya" deməyə öyrəşməlidirlər...







## Volqa boyunca yaranan türk mədəniyyəti

Volqa Rusiyanın ən böyük çaylarından biridir. Bu çayın hövzəsi Rusiyanın Avropa ərazisinin təxminən 1/3 hissəsini tutur və qərbdə Valday və Ortarus yüksəkliyindən şərqdə Urala qədər uzanır. Ancaq "Volqa" çayın tarixi adı deyil. Bu çay əvvəllər "İtil" adını daşıyıb. Uzun dövr ərzidə çayın ətrafında qədim türk tayfaları yaşayıblar və burada öz mədəniyyətlərini yaradıblar. Həmin mədəniyyətin izlərindən biri də çayın tarixi adının türk mənşəli olmasıdır. Ancaq indi Rusiyada bu tarix çox məhdud çevrələrdə xatırlanır.

***Mübariz FEYİZLİ***

# Azərbaycanın xarici dövlət borcu azalıb

## Borcun məbləği ÜDM-in 6,5 faizini təşkil edir

2025-ci il iyulun 1-nə olan dövrdə Azərbaycanın dövlət borcu (daxili və xarici dövlət borcu) 25,7 milyard manat təşkil edib ki, bu da Ümumi Daxili Məhsulun (ÜDM) 19,6 faizi deməkdir. Ümumi dövlət borcunun 8,5 milyard manatı (5 milyard dollar) və ya 33,2 faizi xarici dövlət borcunun, 17,1 milyard manatı və ya 66,8 faizi daxili dövlət borcunun payına düşür.

Ötən dövr ərzində dövlət borcunun idarə edilməsi ilə bağlı strategiya sənədində nəzərdə tutulan faiz dərəcəsi riskinin məqbul səviyyədə saxlanılması məqsədilə dəyişkən faizli borcun ümumi borc portfelində payının 50 faizi keçməməsi üzrə yuxarı hədd gözlənilib. Belə ki, dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər ümumi borc portfelinin 16,4 faizini təşkil edib. Həmçinin, dövlət büdcəsinin borca xidmət xərclərinin dövlət büdcəsi xərclərindəki payı 2025-ci ildə strategiyada nəzərdə tutulan ümumi dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinin 10 faizindən artıq olmaması üzrə yuxarı hədd gözlənilib. Birinci yarımillikdə dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbəti 6 faiz təşkil edib.

## Xarici maliyyə institutlarına olan borc aşağı düşür

Qeyd edilən dövrdə xarici dövlət borcu 5 milyard dollar olmaqla ÜDM-in 6,5 faizini təşkil edib. Xarici dövlət borcu xarici valyuta məzənnələrində baş vermiş dəyişikliklər nəzərə alınmaqla 2025-ci ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 119 milyon dollar və ya 2,4 faiz azalıb. Kredit sazişləri çərçivəsində istifadə olunan vəsait müqabilində 237,1 milyon dollar məbləğində vaxtı çatmış əsas borc ödənişlərinin həyata keçirilməsi xarici dövlət borcunun azalmasını şərtləndirib. İlk 6 ayda xarici dövlət borcunun ÜDM-ə nisbəti 2025-ci ilin əvvəli ilə müqayisədə 0,4 faiz bənd azalıb.

Faiz növləri üzrə bölgüyə gəldikdə, xarici dövlət borcunun tərkibində dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər borcun 49,3 faizini, sabit dərəcə ilə olanlar isə 50,7 faizini təşkil edib. Xarici dövlət borcunun 49,9 faizi 5 ilə qədər olan müddətdə, 44,1 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, 6 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalı olab borc öhdəlikləridir.

Hökumətin xarici borc portfelində ən böyük pay Asiya İnkişaf Bankına (AİB) məxsusdur - bu qurumdan cəlb edilmiş borclar 1,75 milyard dollar və ya 2,97 milyard manat həcmində olub və ümumi portfelin 34,9 faizin təşkil edib.

İkinci yerdə avroinvestorlar qərarlaşıb - onların payına 1,39 milyard dollar və ya 2,36 milyard manat (27,7 faiz) düşür. Üçüncü ən böyük kreditor isə Dünya Bankıdır - 738,6 milyon dollar və ya 1,26 milyard manat həcmində borc ilə portfeldəki payı 14,7 faizdir. Yeri gəlmişkən, DB-dən cəlb edilmiş öhdəliklərin həcmi eyni dövrü ilə müqayisədə 17,5 faiz azalıb.

İslam İnkişaf Bankı (245,4 milyon dollar), Avropa Yenidənqurma və İnkişaf Bankı (232,1 milyon dollar), Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (189,3 milyon dollar) və Asiya İnfrastruktur və İnvestisiya Bankı (124,1 milyon dollar) sonrakı yerləri turur. Bundan əlavə, müxtəlif digər beynəlxalq və ikitərəfli mənbələrdən cəlb edilmiş kreditlərin həcmi 405,1 milyon dollar və ya 688,6 milyon manat olub.

## Avrobondların həcmi borc portfelində 27,7 faizə çatıb

Yeri gəlmişkən, xarici dövlət borcu portfelinin tərkibində qiymətli kağızların da çəkisi əhəmiyyətli yer tutur. Hazırkı borc portfelinin təxminən 27,7 faizi və ya 1 milyard 388 milyon dolları məbləğində olan hissəsini beynəlxalq maliyyə bazarında ticarət olunan xarici valyuta nominallı dövlət istiqrazları (avrobondlar) təşkil edir. Xatırladaq ki, Azərbaycan ilk dəfə avrobond yerləşdirməsini 2014-cü ildə həyata keçirib və sonrakı illərdə bir neçə dəfə beynəlxalq bazarlardan bu üsulla vəsait cəlb edilib. Hazırda ölkənin xarici borc strukturunda avrobondlar ikinci ən böyük komponentdir.

faiz təşkil edib.

Dövlət adından, yəni dövlətin zəmanəti ilə dövlət şirkətləri və ya səhmdar cəmiyyətlərin xarici maliyyə institutlarından cəlb edilmiş vəsaitlərinin strukturunda ən böyük borc yükü "Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyinə məxsusdur. Bu təşkilatın borc portfeli 918 milyon dollar və ya 1,56 milyard manat təşkil edir. "Azərbaycan Dəmir Yolları" QSC-nin öhdəliyi 748,3 milyon dollar və ya 1,27 milyard manata bərabərdir. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi üzrə xarici borcun həcmi 671,3 milyon dollar, Naxçıvan MR Dövlət Su Ehtiyatları Agentliyi üzrə isə 192 milyon dollar, Kənd Təsərrüfatı Nazirliyi 63,5 milyon dollar həcmindədir. Qalan icraçı qurumların payına 444,4 milyon manat ekvivalentində borc düşür.




| Xarici dövlət borcunun kreditorlar üzrə bölgüsü | | Abreviatura | 01 iyul 2025-ci il tarixinə (milyon vahid) | |
|---|---|---|---|---|
| | | | ABŞ dolları | AZN |
| CƏMİ | | | 5.010,7 | 8.518,2 |
| 1 | Asiya İnkişaf Bankı | AİB | 1.748,0 | 2.971,6 |
| 2 | Avrobond üzrə investorlar | İnvestorlar | 1.387,3 | 2.358,4 |
| 3 | Dünya Bankı | DB | 738,6 | 1.255,6 |
| 4 | İslam İnkişaf Bankı | İİB | 245,4 | 417,2 |
| 5 | Avropa Yenidənqurma və İnkişaf Bankı | AYİB | 232,8 | 395,8 |
| 6 | Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi | YBƏA | 167,8 | 285,3 |
| 7 | Asiya İnfrastruktur və İnvestisiya Bankı | AİİB | 85,7 | 145,7 |
| 8 | Digər kreditorlar | Digər | 405,1 | 688,6 |







Borcun valyuta ilə strukturunda isə əsas yer dollar öhdəlikləridir. Belə ki, xarici dövlət borcunun 85,1 faizi dollarla cəlb edilmiş vəsaitlərdir. Borcun tərkibində avro 6,5 faiz, Beynəlxalq Valyuta Fondunun xüsusi borc üzrə öhdəlikləri 3,4 faiz, yapon yeni 3,3 faiz, digər valyutalar isə 1,7 faiz təşkil edib.

Beləliklə, borcun 58,1 faizi müxtəlif dövlət qurumları tərəfindən həyata keçirilən layihələr və proqramlar üzrə cəlb olunmuş xarici vəsaitlərdir. Bu struktur dövlət zəmanətli layihələrin əhəmiyyətli həcmini və müxtəlif sektorlarda xarici maliyyələşmənin rolunu əks etdirir.

## Daxili dövlət borcu da 1,5 milyard manata yaxın azalıb

Borc balansında daxili dövlət borcu 17,1 milyard manat olmaqla ÜDM-in 13,1 faizini təşkil edir. Daxili dövlət borcu 2025-ci ilin əvvəli ilə müqayisədə 1,5 milyard manata yaxın (7,9 faiz) azalıb. Bu, ilin əvvəli ilə müqayisədə ÜDM-ə nisbətdə 1,7 faiz bənd azalma deməkdir. Daxili dövlət borcunun strukturuna gəlincə, həmin vəsaitlərin 8 milyard manatını dövriyyədə olan dövlət qiymətli kağızları, 9,1 milyard manatdan çox hissəsini isə hökumətin üzərinə götürdüyü dövlət zəmanətli öhdəliklər təşkil edir.

Daxili borcun tərkibində mühüm yer tutan dövlət qiymətli kağızları daxili maliyyə bazarının inkişafının dəstəklənməsi məqsədilə son illər əsas priortet təşkil edir və 2018-ci il ilə müqayisədə dövriyyədə olan dövlət qiymətli kağızlarının həcmi təqribən 7,6 dəfə artıb. Dövriyyədə olan dövlət qiymətli kağızlarının 12,9 faizi 1 illik, 57 faizi 2 və 3 illik, 30,1 faizi isə 5 il və daha artıq müddətli qiymətli kağızlarının payına düşür. Dövlət istiqrazları üzrə Orta Ödəmə Müddəti (OÖM) 2,93 təşkil edir. Cari ilin birinci yarımili ərzində dövlət istiqrazları üzrə OÖM-ün artırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində uzunmüddətli dövlət istiqrazlarının emissiyası həyata keçirilib.

2025-ci ilin birinci yarımili ərzində 2025-ci il üzrə dövlət büdcəsinin dövlət borcuna xidmət xərclərindən daxili dövlət borcu üzrə öhdəliklərin yerinə yetirilməsinə 328,7 milyon manat vəsait istifadə edilib. Bununla yanaşı, dövlət istiqrazları üzrə ümumilikdə 2,9 milyard manatdan çox vəsait əsas borc ödənişlərinə yönəldilib. Həmin vəsaitin 1,5 milyard manat məbləğində hissəsi təkrar maliyyələşdirmə, o cümlədən 1,4 milyard manatı dövlət istiqrazlarının vaxtından əvvəl geri alınaraq daha uzunmüddətli dövlət istiqrazları ilə əvəz edilməsinə sərf olunub.

## Dünyada və Cənubi Qafqazda ən az xarici borca malik ölkə

Azərbaycan hazırda borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələri sırasında yer alır. Ölkəmiz regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır. Ölkəmizdə borcun ÜDM-də payı 6,5 faiz təşkil edir ki, bu da dünya miqyasında ən aşağı göstəricidir. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir.

Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2025-ci ilin birinci yarısında 12,6 milyard dollar olmaqla ÜDM-in 55 faizini təşkil edir. Gürcüstanın da borc yükü Azərbaycanla nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 44 fazidən yuxarıdır.

Avropa regionunda və Cənubi Qafqaz ölkələri qrupunda borcun strateji rezervlərin nisbətinə görə də, Azərbaycan ən yaxşı mövqeyə malikdir.

2025-ci il iyulun 1-ə olan müddətdə Azərbaycanın strateji valyuta ehtiyatları (Dövlət Neft Fondu və Mərkəzi Bankın birgə rezervləri) 77,7 milyard dollara bərabər olub ki, bu da xarici dövlət borcunun təqribən 15,5 dəfə üstələnməsi deməkdir. Digər region ölkələrindən Ermənistanda rezervlərin həcmi 5,3 milyard dolar olmaqla borcdan 2,2 dəfə azdır. Gürcüstanın strateji ehtiyatlarının həcmi isə 13,6 milyard dolar olmaqla təxmini olaraq borcdan azdır.

## Borclanma ilə bağlı təmkinli siyasət yürüdülür

Xarici borcla bağlı digər bir məqam beynəlxalq bazarlarda yeni borc alma imkanlarının səmərəliliyi və ölkənin reytinqi ilə bağlıdır. Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə beynəlxalq maliyyə bazarlarında olduqca müsbət rəy formalaşdırıb. Həmçinin ölkəmizdə ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Belə ki, xarici maliyyə institutları borclarını azaldan ölkələrə növbəti borc paketi ayırarkən daha aşağı faizlə və uzunmüddətli şərtlərlə verir. Çünki, borcu qaytarma imkanları yaxşıdır. Bu baxımdan bu gün Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Səudiyyə Fondu və digər beynəlxalq institutlar Azərbaycana ən sərfəli kreditlər təklif edirlər. Azərbaycan həmin sərfəli təklifləri nəzərə alaraq Böyük Qayıdışın sürətlə icra olunduğu şəraitdə öz iqtisadi məqsədləri üçün səmərəli borclanmaya getməyi də istisna etmir.

**ELBRUS CƏFƏRLİ**

# Fransa beynəlxalq hüquq normalarını pozur

## Bu ölkənin Milli Assambleyasında Azərbaycana qarşı yönəlmiş qətnamə erməni maraqlarına xidmət edir

*Nardar BAYRAMLI*

Fransa ölkəmizə qarşı qərəzli mövqeyini davam etdirir. Bir neçə gün öncə Fransa Milli Assambleyasında Azərbaycana qarşı yönəlmiş qətnamə layihəsinin irəli sürülməsi bunun növbəti göstəricisidir. Qətnamə layihəsi bir daha bu ölkədənin ermənipərəst mahiyyətini açıq şəkildə ortaya qoyur. Sənəddə regionumuzda baş verən proseslərə növbəti müdaxilə cəhdi olan bu layihədə adəti üzrə reallıqlar təhrif olunur, Azərbaycanın ərazi bütövlüyünə açıq hörmətsizlik nümayiş etdirilir və ölkəmiz əleyhinə yalan ittihamlar ortaya atılır.

**Fransa Cənubi Qafqazda sülh istəmir**

Görünən odur ki, Azərbaycanla Ermənistan arasında, xüsusən liderlərin Əbu-Dabi görüşündən sonra sülh gündəliyinin irəliləməsi müəyyən qüvvələrin maraqlarına heç bir halda cavab vermir. Onlar vəziyyəti yenidən gərginləşdirmək və sülh gündəliyinə xələl gətirmək xəttini seçiblər. İndiki məqamda Fransa Milli Assambleyasında irəli sürülmüş bu lüzumsuz qətnamə cəhdi də bu davranışın növbəti bariz nümunəsidir.

Xatırladaq ki, Milli Məclis Korsika Xalqına Dəstək Qrupu məsələ ilə bağlı bəyanat vermişdi. Bəyanatda qeyd olunduğu kimi, Yeni Kaledoniya ilə Fransa arasındakı sonuncu razılaşmalar artıq Yeni Kaledoniyanın bir dövlət kimi formalaşma istiqamətində inamla irəlilədiyini göstərir. Belə bir vəziyyətdə vətəndaş cəmiyyəti təsisatı və qeyri-hökumət təşkilatı olan Bakı Təşəbbüs Qrupunun Yeni Kaledoniyaya göstərdiyi dəstək Fransanı olduqca qıcıqlandırır. Əminliklə demək olar ki, Fransa tərəfi Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə özünəməxsus üslubda - həmin qətnamə layihəsi ilə cavab verməyə çalışır.

Bütövlükdə, Fransa Milli Assambleyasında indiyədək ölkəmiz əleyhinə qəbul edilmiş qətnamələrin mahiyyəti bundan ibarətdir ki, rəsmi Paris Cənubi Qafqazda sülh gündəliyindən tamamilə kənarda qalmasını həzm edə bilmir. Bu səbəbdən də bütün vasitələrdən istifadə edərək regionda vəziyyəti yenidən gərginləşdirməyə cəhd edir. Bütün bunlara ən böyük dəstəyi də erməni lobbisi və ermənipərəst dairələr verir. Digər vacib bir məqamı xüsusilə vurğulamaq lazımdır ki, ölkəmizə qarşı atılan bu kimi addımlarda bir-biri ilə əlaqəli olan vahid bir şəbəkənin fəaliyyəti özünü aydın şəkildə bürüzə verir. Müəyyən qüvvələrin maraqlarını reallaşdırmağa çalışan həmin şəbəkənin ayrı-ayrı ünsürləri İsveçrə parlamentində, Fransa parlamentində, ABŞ Konqresində müxtəlif təxribatlar ortaya ataraq regiondakı sülh gündəliyini pozmağa çalışırlar. Lakin onlar bilməlidirlər ki, bu kimi təxribatlar Azərbaycanın yürütdüyü müstəqil siyasətə təsir göstərə bilməz və Cənubi Qafqaz regionunda baş verən proseslərə xarici müdaxilələrə heç bir halda icazə verilməyəcək.



**Avropa Azərbaycan Mərkəzi bəyanat verib**

EUROPÄISCHES ASERBAIDSCHAN ZENTRUM e.V.
AVROPA AZƏRBAYCAN MƏRKƏZİ

Yeri gəlmişkən, Almaniyada fəaliyyət göstərən Avropa Azərbaycan Mərkəzi də Fransa Milli Assambleyasında irəli sürülmüş növbəti qərəzli və əsassız qətnamə layihəsi ilə bağlı bəyanat yayıb. Qətnamə ilə bağlı dərin narahatlığın ifadə edildiyi bəyanatda onun beynəlxalq hüququn fundamental prinsiplərinə zidd olmaqla yanaşı, Azərbaycan Respublikasının suveren hüquqlarına müdaxilə xarakteri daşıdığı və siyasi motivasiyalı təşəbbüs kimi qiymətləndirilməli olduğu vurğulanıb. Bildirilib ki, qətnamədə Azərbaycanın guya etnik təmizləmə və soyqırımı həyata keçirməsinə dair səsləndirilən ittihamlar Soyqırımının qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyaya və beynəlxalq cinayət hüququna tamamilə ziddir. Azərbaycan öz suveren ərazisində həyata keçirdiyi antiterror tədbirləri zamanı beynəlxalq humanitar hüquqa, xüsusilə 1949-cu il Cenevrə Konvensiyalarının IV Konvensiyasına tam əməl edib, mülki əhalinin müdafiəsini təmin edib və bölgənin könüllü şəkildə tərk edən ermənisilli şəxslərin təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı üçün dəfələrlə çağırış edib.

**Paris revanşizmi təşviq edir**

Bundan başqa, həmin qətnamədə Ermənistanın guya "sülh tərəfdarı" kimi təqdim olunmasının BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin müddəalarına zidd olduğu bəyanatda vurğulanıb. BMT Təhlükəsizlik Şurası qətnamələrinin 30 ilə yaxın müddətdə yerinə yetirilmədiyi halda Fransa Milli Assambleyasının qəbul etdiyi sənəddə Qərbi Azərbaycandan deportasiya olunmuş yüz minlərlə azərbaycanlının geri qayıtmaq hüququna dair heç bir qeydin yer almaması 1951-ci il Qaçqınların Statusu haqqında Konvensiyanın və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü və 17-ci maddələrinin açıq şəkildə pozulması olduğu bildirilib.

Bəyanatda Fransanın Cənubi Qafqaz regionunda neytral vasitəçi yox, tərəf kimi çıxış etməsinin, Ermənistanı hərbi sursatla təmin etməsi və revanşist qüvvələri təşviq etməsinin BMT Nizamnaməsinin 1-ci və 33-cü maddələrində təsbit olunmuş sülhün təşviqi və münaqişələrin dinc yolla həlli prinsipləri ilə ziddiyyət təşkil etməklə yanaşı, regional təhlükəsizliyə və sabitliyə təhdid yaratdığı, sülh səylərinə zərbə vurmaq məqsədi daşıdığı qeyd olunub.

"Avropa Azərbaycan Mərkəzi beynəlxalq hüququn təməl prinsiplərinə və BMT Nizamnaməsinə hörmətin təmin olunmasını bölgədə ədalətli və davamlı sülhün bərpası üçün əsas şərt hesab edir. Biz Fransa parlamentini və siyasi dairələrini qərəzli mövqedən əl çəkməyə, beynəlxalq hüquqa sadiq qalmağa və Azərbaycanın suveren hüquqlarına hörmət etməyə çağırırıq", - deyə bəyanatda vurğulanıb.

# Azərbaycançılıq ideologiyasında ana dili amili...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti üzrə hazırlanmışdır**

Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva edir. Azərbaycançılıq təkcə dövlətimizin vətəndaşlarını yox, bütün dünyada yaşayan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib. Xalqın, milli dövlətimizin məfkurəsinə çevrilən azərbaycançılıq ideologiyası mənəvi-ideoloji müstəvidə milli inkişafın praktik modelinə çevrilib. Azərbaycançılıq real tarixi keçmişimizlə, milli mentalitetimizlə və mövcud dəyərlərlə sıx bağlı olduğundan qısa zaman kəsiyində cəmiyyət tərəfindən qəbul olunub. Digər tərəfdən, bu ideologiya siyasi mənsubiyyətindən və dini əqidəsindən asılı olmayaraq, bütün etnik qrupların, milli azlıqların hüquqlarını paritet əsasda təsbit etdiyindən milli həmrəylik mənbəyinə çevrilib.

Azərbaycançılıq ideologiyasında ana dili amili mühüm yer tutur. Yeri gəlmişkən, dünən - 1 avqust tarixində ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü qeyd olundu. Hər bir xalqın dili onun mədəniyyətinin, tarixinin və kimliyinin ən vacib təməl daşlarından biridir. Fərqli xalqların dilləri onların tarixindən, yaşayış tərzindən və düşüncə dünyasından əks-səda verir. Bütün bunlarla yanaşı, dil bir millətin özünü ifadə etməsinin, irsini gələcək nəsillərə çatdırmasının yeganə yoludur. Bu baxımdan, ana dilimizin azərbaycançılıq məfkurəsində yeri və rolu müstəsna əhəmiyyət kəsb edir.

Mövzu ilə bağlı Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, dünya azərbaycanlılarını birləşdirərək milli məfkurəyə çevrilən azərbaycançılıq ideologiyası ölkədəki bütün konfessiya və etnosların da həmrəylik və qarşılıqlı anlaşma mühitində yaşamasını təmin edən ideoloji faktordur. Onun sözlərinə görə, Azərbaycançılıq ideologiyası, eyni zamanda, milli dəyərlərin təbliği, gəncliyin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından müstəsna əhəmiyyət kəsb edir: "Ümumiyyətlə, müasir dövrdə - qloballaşma şəraitində hər bir ölkənin milli inkişaf siyasətinin əsasında dayanan fundamental faktorlardan biri də milli-mənəvi dəyərlər və milli ideologiya əsasında gənclərin inkişafı və tərbiyəsinin təmin edilməsidir. Dövlətin yüksək diqqət və qayğısının fonunda mütəmadi olaraq inkişaf edən Azərbaycan gəncliyi həm milli-mənəvi dəyərlərin, milli ideologiyanın mənimsənilməsində, həm də təbliğində aktiv təbəqə kimi çıxış edir. Əsas məsələ isə budur ki, Azərbaycan gəncliyi bu kontekstdə dövrün tələb və reallıqlarına uyğun surətdə çevik və səmərəli fəaliyyət mexanizmi ilə milli inkişafa töhfələr verir. Bunlarla yanaşı, azərbaycançılıq ideologiyası çərçivəsində diqqət yetirilən mühüm strateji istiqamətlərdən biri də ana dilimizin qorunmasıdır".




Millət vəkili diqqətə çatdırıb ki, müstəqillik illərində Heydər Əliyev tərəfindən milli dilimizin qorunması istiqamətində tarixi əhəmiyyət kəsb edən qərarlar qəbul edilib. Belə ki, Ümummilli Liderimizin 2001-ci il avqustun 9-da imzaladığı Fərmana əsasən, avqustun 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür. Bundan öncə isə 2001-ci ilin iyununda Heydər Əliyev tərəfindən "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalanmışdı. Azərbaycan dilinin tarixində bu səviyyədə sənədin qəbul olunmadığını deyən K.Bayramovun fikrincə, çünki sənəddə çox ciddi, fundamental və strateji münasibət ortaya qoyulub. Burada dilin tarixindən başlamış, müasir dövrümüzə qədər olan məsələlər geniş şəkildə öz əksini tapıb. Dövlətin dil siyasətini bütün miqyası ilə olduqca dolğun şəkildə əks etdirən Fərman həm də elmi-metodoloji məzmunu ilə diqqəti cəlb edir. Sənəddə Azərbaycan dilinin mənşəyi məsələsinə ayrıca və geniş yer ayrılıb.

Heydər Əliyev tərəfindən əsası qoyulan siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev dilimizin qorunması və inkişafına böyük həssaslıqla yanaşır. Azərbaycan dilinin qorunmasına, dilimizə daim qayğı göstərilməsinə və onun yad təsirlərdən qorunmasına önəm verən dövlət başçısı qeyd edib: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz - Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir".

Millət vəkilinin sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli siyasətin mühüm istiqamətlərindən biri kimi Azərbaycan dilinin mühafizəsi və təbliği yönündə reallaşdırılan fundamental tədbirlər həm də milli ideologiyanın - azərbaycançılığın daha da möhkəmlənməsini və kütləvilik səviyyəsinin daha da artmasını şərtləndirib. Prezidentin imzaladığı Fərman və sərəncamlar milli dilimizin mühafizəsi və inkişafı yönündə mühüm əsas olmaqla yanaşı, eyni zamanda, milli identikliyi də gücləndirən əhəmiyyətli amildir. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamı da bu istiqamətdə xüsusi əhəmiyyət kəsb edir. Qeyd edək ki, bu Sərəncam əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Bunun da nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu. Prezident İlham Əliyev tərəfindən 2012-ci il mayın 23-də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Sərəncamın imzalanması da xüsusi olaraq vurğulanmalıdır. Dövlət başçısının 17 iyul 2018-ci il tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı da Azərbaycan dilinin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından böyük önəm kəsb edir. Bütün bu faktlar Azərbaycan dili azərbaycançılıq ideologiyasının güclənməsində mühüm faktor olduğunu təsdiqləyir.

***Nardar BAYRAMLI***

# Rusiyahlar...

## Pruşkeviçdən zatulinlərə, solovyovlara...

Rusiyah XX yüzilin əvvəllərində Rusiyada fəaliyyət göstərən terrorçu qruplara müsəlman türklərinin verdiyi addır. Daha doğrusu, rus terroristləri özləri-özlərini bu adla təqdim edirdilər. "Qara yüzlər" (Черная сотня, черносотенцы). Qara yüzlər, əsasən, yəhudiləri və Rusiya türklərini terror edir, xüsusən, Kazan tatarlarını ölkədən qovmaq istəyirdilər.

Həqiqi Rus İttifaqını və Mixail Arxangel Cəmiyyətini də öz ətrafında birləşdirən bu təşkilat Rusiya Dövlət Dumasında deputat Pruşkeviç tərəfindən yönləndirilirdi. Dumada siyasəti-fürusətlə, yəni at oynatmaqla məşğul idilər. Adları "Qara yüzlər" olsa da, tarixə bu şəkildə keçib: Rusiyahlar. Qara üzlər. Əli bəy Hüseynzadə o illərdə yazdığı "Siyasəti-fürusət" əsərində rus "qarayüzlərinin və qaraüzlülərinin" lideri Pruşkeviçin kölgəsinə bu sözləri dedizdirib onu ifşa edirdi: "Siyasəti-fürusət əfsunlarının biri də əhali arasına nifaq və təfriqə salmaqdadır... Bizim Rusiyada sehr, əfsun, tilsim, filan yoxsa da, onun yerinə "hipnotizm" deyilən təlqin fənni vardır. Biz bu fənnin sayəsində rus ilən müxalif olan millətlərin siyasi hüquq və mülkiyyətcə bərabərlik tələbindən vaz keçmələrinə çalışıyoruz. Etdikləri təqdirdə yenə eyni fənn sayəsində bütün əhaliyə insanlıqlarını unutdurub, bir-biri ilə qovğa etdiriyoruz..."

Hüseynzadə Rusiya türklərinə Pruşkeviçin hipnozlarına uymamağı təlqin edir, Rusiya Dövlət Dumasında at oynadan Həqiqi Rus İttifaqının liderlərini ələ salırdı.

Qabdulla Tukayın da qarayüzlərə ünvanladığı "Kitmibez" (Getmərik) adlı bir şeiri var. Şeirdə hədəf yenə də Rusiya Dövlət Dumasında meydan sulayan Pruşkeviçdir. Həmin Pruşkeviç idi ki, Rusiya İmperiyasının türklərə laqeyd münasibətini tənqid edən müsəlman fraksiyasının deputatlarını hədələyib, lağa qoyurdu. O Pruşkeviç ki, ən adi hüquqlarını tələb edən müsəlman türklərə Rusiyadan Türkiyəyə köçüb getməyi "tövsiyə" edir, yəhudilərə və türklərə qarşı gerçəkləşdirilən terror aksiyalarına başçılıq edirdi. Tukay "rusiyah güruhun - "Rus Xalq İttifaqı"nın başçısı Pruşkeviçin şəstini sındırır, onun rəhbərlik etdiyi Mixail Arxangel Cəmiyyətinin qarayüzlü (rusiyah - qara üz və çernıe sotni - qara yüzlər) çətəsinə xitab edib "getmərik" deyirdi. Tukayın şeirini rus dilinə tərcümə edən Dumaeva, qəribədir, nəinki Rusiya adının keçdiyi misraya düzəliş edib, hətta tatarca yazılmış şeirdəki "Тиз геня кузгалмыйбыз без, и гюруще русиящ!" misrasındakı rusiyah sözünü tərcümə etməyə belə ehtiyac duymayıb.

Нет, не свернете нас с
пути вы, подлые русиящ!

Üstündən 110 il keçib. Rəzil qara yüzlər - "Podlıe rusiyah"lar yenidən aktivləşib. Rusiyanın Dövlət Dumasında yeni Pruşkeviçlər baş qaldırıb. Vitse-spiker Pyotr Tolstoy da Azərbaycana dil uzadır, Rusiyada yaşayan azərbaycanlıları şərləyir.

Biz Rusiyanı Lev Tolstoya görə sevmişik. Əfsus ki, bu gün Rusiyanın ali qanunverici orqanında Azərbaycana qarşı həqarət püskürən adamın da soyadı Tolstoydur. Pyotr Tolstoy. Özü də deyirlər, bu Tolstoy yazıçı Tolstoyun nəslindəndir. O Tolstoyun ki, az qala, rus sufizmini yaradıb "fənalığa müqabilə etmə" deyirdi. O zaman Əli bəy Hüseynzadə bildirirdi ki, "Tolstoy Engelqard adlı birisinə yazdığı məktubda deyir ki, əgər evimə afrikalı bir zulus vəhşisi hücum edib gözümün önündə ciyərparam olan övladımı xəncərlə doğrasa, mən əsla müqabilə etməm!" Hüseynzadə deyirdi ki, "Həyatın bütün zövqü fənalıqla mübarizədən ibarətdir... Tolstoy, həqiqətən, müqabilə edərdimi, etməzdimi, bu, başqa mövzudur. Lakin bu sözdə bir həmaqət (axmaqlıq) olduğu aşkardır. Ey oxucu, bu xüsusda o qədər böyük bir zata axmaqlıq isnad etdiyimdən ötrü dilgir olma. Çünki Tolstoyun ara-sıra axmaqlıq xoşuna gediyor". Bəlkə ona görə ki, siyasət başqa, ədəbiyyat başqadır? Necə ki, böyük ruhşünas kimi tanıdığımız Dostoyevski "İstanbul ruslara məxsusdur" deyirdi.

İmperiyanın türk qövmü ilə münasibətlərinin mahiyyətinə diqqəti cəlb edən Hüseynzadə 1915-ci ildə Avropanın siyasi rəhbərlərinə ünvanladığı məktubda bildirirdi ki, "Rus ədəbiyyatının Rusiya türkləri üzərində faydalı təsirləri inkar edilməz. Fəqət, bu mədəniyyətin qaynaqlarından biri Bizans ortodoksluğudur. Onda Avropa mədəniyyətinin əsaslı keyfiyyətləri yoxdur. Bu kifayətsizlik rusların yaydığı kültürü daima axsatmışdır. Ruslar kəndi kültürlərini yayarkən milli kültürləri yox etmə qayəsini güdürlər..."

Rusiya-Ukrayna savaşı başlayanda qələmə aldığım "Panslavyanizmin qürubu" yazımdan sonra bu mövzuya qayıdacağımı düşünmürdüm. Amma Rusiyadakı şovinist dilmancların son vaxtlar Azərbaycana qarşı sərgilədikləri davranış istər siyasi, istərsə də mənəvi əndazəni aşır.

Rusiyanın başlıca iddiası üçüncü Roma olmaq idi. Amma Rusiya ilə Ukrayna arasında baş verən və slavyan birliyini özülündən zədələyən müharibə Kazan türklərinin dövlət xarabalığı üzərində qurulmuş üçüncü Bizansın süqutunu yaxınlaşdırmışdır. Vaxtilə "Moskva - üçüncü Roma" ideologiyasını irəli sürən Monax Filofey "Yeni bir Roma şimalda yüksəlir və kainatı işıqlandırır... Bu üçüncü Roma qiyamətə qədər davam edəcəkdir. Dördüncü bir Romanın düşünülməsi mümkün deyil", - deyirdi. Eyni fikirlər Rusiyanı üçüncü Bizans olaraq dəyərləndirən Karamzin tərəfindən də təkrar və təsbit edilmişdi. Pyotr Tolstoyların, Solovyovların timsalında Antixrist dördüncü Bizansın doğuluşuna imkan buraxmadı. Artıq üçüncü və sonuncu Bizans süqut etməkdədir. Azərbaycana dil uzadan rusiyahlar - qaraüzlü Pyotr Tolstoylar, Konstantin Zatulinlər, Nikolay Valuyevlər, Vladimir Solovyovlar parlament və TV-lərində Azərbaycanı deyil, öz aqibətlərini müzakirə etsinlər...

*30 iyul 2025*



***Azər TURAN***

# Siyasi korrektə...

## ABŞ Tayvanla əlaqələri niyə kəsir?

Tayvan problemi uzun illərdir ki, beynəlxalq münasibətlər sistemində ciddi müzakirə mövzusu olaraq qalır. Rəsmi Pekin Tayvanı Çin Xalq Respublikasının ayrılmaz tərkib hissəsi hesab edir. Beynəlxalq birlik bu regionu Çinin ərazisi kimi tanıyır. Azərbaycan da "Vahid Çin" siyasətini dəstəkləyərək Tayvanı bu ölkənin tərkib hissəsi hesab edir.

Bununla belə, bir sıra ölkələr ada ilə müstəqil ticarət əlaqələrinə malikdir. ABŞ isə hələ 1979-cu ildə Pekinin "Vahid Çin" siyasətini tanısa da, Tayvanla iqtisadi, humanitar münasibətlərini davam etdirir, davamlı olaraq adaya silah tədarük edir. Tayvan məsələsi indiyədək Çin-ABŞ münasibətlərinin ən həssas məqamı olub. Rəsmi Pekin Tayvan mövzusunu Çin və Birləşmiş Ştatlar arasındakı münasibətlərdə keçilə bilməyən əsas qırmızı xətt hesab edib. Çin ABŞ-dan "Tayvanın müstəqilliyi"ni dəstəkləməməyi və adanı silahlandırmamağı tələb etsə də, Vaşinqton bu siyasətini indiyədək davam etdirib.

### ABŞ Tayvanın müdafiə nazirinin səfərini təxirə salıb

Hətta bu yaxınlarda ABŞ Tayvana "M1A2T Abrams" tanklarının ikinci partiyasını göndərib. Bu barədə "Taipei Times" qəzeti məlumat yayıb. Nəşrin məlumatına görə, 42 tank ötən bazar günü göndərilib və adanın şimal-qərbindəki Sinçju əyalətindəki tank təlimi bölməsinə köçürülüb. Qeyd edək ki, 2,2 milyard dollar dəyərində 108 ədəd "Abrams" tankının satışına dair razılaşma 2019-cu ildə Tayvanın müdafiə qabiliyyətinin gücləndirilməsi səyləri çərçivəsində Vaşinqton tərəfindən təsdiqlənib. 38 avtomobildən ibarət ilk partiya 2024-cü ilin sonunda təhvil verilib və artıq "Hanquan-2025" təlimləri zamanı istifadə olunub. Üçüncü partiyanın isə 2026-cı ildə göndəriləcəyi gözlənilir.

Belə bir şəraitdə ABŞ Çinlə ticarət razılaşması əldə etmək üçün Tayvanla müdafiə danışıqlarını ləğv edib. Tayvan müdafiə nazirinin Vaşinqtona səfəri Ağ Evin göstərişi ilə son anda təxirə salınıb. Rəsmilər buna səbəb kimi İrana hücumları göstərsələr də, pərdə arxasında Pekinlə gərginlik əsl səbəb olub. Bu isə ona əsaslanır ki, prezident Tramp Çinlə müxtəlif gərginliklər yaşamamaq üçün belə bir addım atmağa məcbur olub.

Tayvan hökuməti potensial Çin işğalına qarşı müdafiəsini gücləndirmək üçün ABŞ-dan 20 milyard dollar dəyərində silah və sursat üçün müraciət prosesinə başlayıb. Lakin ABŞ-ın Çinlə münasibətləri nəzərə alaraq atılan bu addımlar kəskin təhlükə yarada bilər. Tayvanın "lideri" Lai Çinq-tenin ABŞ-a səfəri zamanı Nyu-Yorkda planlaşdırdığı tranzit dayanacaqlarının da ləğv edilməsi bununla əlaqələndirilir.

Ticarət məsələsinə gəlincə, iyulun 29-da İsveçin paytaxtı Stokholm şəhərində ABŞ ilə Çin arasında gömrük rüsumlarına və ticari münasibətlərə həsr olunmuş danışıqların ikinci raundu keçirilib. Danışıqlarda Birləşmiş Ştatları maliyyə naziri Skott Bessent, Çini isə ÇXR Dövlət Şurası Baş nazirinin müavini Hi Lifen təmsil ediblər. İki gün davam edən müzakirələrin əsas mövzu avqustun 12-də başa çatacaq müvəqqəti ticarət sazişinin müddətinin mümkün uzadılmasıdır. Danışıqlar zamanı Çinin Rusiya və İrandan neft alması, ticarət balansının pozulması və nadir torpaq metallarının ixracına qoyulan məhdudiyyətlər kimi həssas məsələlərə də toxunulub.

Qlobal əhəmiyyətə malik olan və dünyanın ən inkişaf etmiş iki ölkəsi arasında ticari münasibətlərə aydınlıq gətirən bu görüş ərəfəsində ABŞ Prezidenti Donald Tramp bildirmişdi ki, o, həmkarı Si Cinpin ilə "görüşməyə can atmır, amma Pekinə səfər edə bilər".



### "Tarif barışığı" üç ay uzadılıb

Pekin və Vaşinqtonun may və iyun aylarında həftələrlə davam edən "tit-for-tat" tariflərini və nadir torpaq minerallarının tədarükü ilə problemi həll edən ilkin razılaşmalar əldə edildikdən sonra Çin Tramp administrasiyası ilə davamlı tarif razılaşmasına nail olmaq üçün avqustun 12-də yüksək səviyyədə görüşün olacağını istisna etmir.

Donald Tramp Böyük Britaniyanın Baş naziri Kir Starmer ilə Şotlandiyada keçirdiyi geniş mətbuat konfransında bu danışıqlara da toxunub. O, Çinlə razılaşmaya ümid etdiyini bildirib. ABŞ-ın ticarət nümayəndəsi Ceymison Qreer özünün də iştirak etdiyi Stokholm danışıqlarının birinci günü ilə bağlı CNBC telekanalına deyib: "Mənim gözlədiyim şey bu günə qədər razılaşmamızın icrasını izləmək və yoxlamaq, əsas kritik minerallarən tərəflər arasında dövr etdiyinə əmin olmaq və irəlidə inkişaf etmiş və balanslaşdırılmış ticarət üçün zəmin yaratmaqdır".

Stokholm danışıqları Trampın bazar günü Aİ-nin ABŞ-a ixrac etdiyi əksər Aİ mallarına 15 faizlik rüsum tətbiq etmək üçün Avropa İttifaqı ilə imzaladığı ən böyük ticarət razılaşmasından sonra keçirilib. ABŞ maliyyə naziri danışıqların ikinci raundunun konstruktiv keçdiyini deyib. Danışıqlar nəticəsində tərəflər "tarif barışığını", yəni müvəqqəti ticarət sazişini üç ay uzadıblar.

Əlbəttə ki, Trampın Tayvanla bağlı yeni mövqeyi təkcə Çinlə ticarət razılaşması ilə bağlı deyil. Burada diqqət çəkən məqamlardan biri Çini Rusiyaya dəstək verməkdən çəkindirməkdir. Tramp administrasiyası hesab edir ki, Çin Rusiya ilə ticarət əlaqələrini azaltsa, bu ölkədən neft-qaz alışını məhdudlaşdırsa, o zaman Moskvanın mövqeyi zəifləyəcək. Bu zəiflik Ukrayna müharibəsində də özünü göstərə bilər. Ona görə də, Tramp Vaşinqtonun siyasətində Tayvanla bağlı korrektələr etməkdədir.

### ABŞ Konqresi Tayvana nümayəndə heyəti göndərəcək

Lakin prezidentin Tayvanla bağlı yeni mövqeyi ABŞ-da hamı tərəfindən müsbət qarşılanmır. Belə ki, ABŞ Konqresinin Tayvana nümayəndə heyəti göndərməsi nəzərdə tutulur. ABŞ Senatının Silahlı Qüvvələr Komitəsinin sədri Rocer Uiker nümayəndə heyətinə rəhbərlik edəcək. "Financial Times" qəzetinin məlumatına görə, səfər avqustun ikinci ongünlüyündə planlaşdırılır. Nəşr qeyd edir ki, Uikerin səfəri "ABŞ-Tayvan münasibətlərində incə məqama təsadüf edir", çünki "ABŞ Prezidenti Donald Trampın Çin lideri Si Cinpinlə görüşdə israrlı olması səbəbindən Tayvana kömək etmək istəməməsi ilə bağlı Vaşinqton və Taybeydə narahatlıqlar artır". Qəzet yazır ki, ada Trampın Vaşinqtonun Tayvanın müstəqilliyinə qarşı olduğunu bəyan edən bəyanatla çıxış edə biləcəyindən xüsusilə narahatdır. Nəşr "Ağ Evin bu yaxınlarda Tayvan "prezidentinin" Mərkəzi Amerikaya gedərkən Nyu-Yorkda tranzit dayanacağı ilə bağlı tələbini rədd etdiyinə" də diqqət çəkib.

Bütün bunların fonunda ABŞ-ın Tayvan mallarına 32 faizlik tarif tətbiq etməsi də Trampın mövqeyinin göstəricisidir. Lakin Vaşinqtonun Tayvanla əlaqələri tam kəsəcəyi real deyil. Çünki Tayvan amili ABŞ-ın Çinə qarşı əsas təsir vasitələrindən biri olaraq qalır.

*N.BAYRAMLI*

# ABŞ və İsraildən Qəzzaya yardım

## Məqsəd nədir?

ABŞ və İsrail Qəzzaya maliyyə yardımı ayırmaq qərarına gəliblər. Belə ki, "Reuters" agentliyinin məlumatına görə, Tramp administrasiyasının yüksək rütbəli rəsmiləri Konqressə İsrailin Qəzza Humanitar Fonduna (GHF) dəstək üçün 30 milyon dollar ayırmağa razılaşdığını bildirib. Agentliyin məlumatında qeyd olunur ki, ABŞ Prezidenti Donald Trampın xüsusi



nümayəndəsi Stiv Uitkoffun köməkçiləri bu barədə iyulun 8-i və 9-da Senatın və Nümayəndələr Palatasının komitələrini məlumatlandırıblar. Eyni zamanda, ABŞ-ın özü də humanitar fonda 30 milyon dollar yardım ayırmağı planlaşdırır. Qərb KİV-ləri qeyd ediblər ki, Ağ Evin rəhbəri çox güman ki, Qəzza Humanitar Fonduna birgə maliyyə yardımının ayrılması ilə bağlı məsələni İsrailin Baş naziri Benyamin Netanyahu ilə razılaşdırıb - Amerikanın liderı ABŞ və İsrailin vəsaitlərini birləşdirib. Bu isə cəmi 60 milyon dollar deməkdir. Xüsusilə qeyd etmək lazımdır ki, Qətərin paytaxtı Doha şəhərində ABŞ, Misir və Qətərin vasitəçiliyi ilə İsrail və HƏMAS arasında bir müddət davam edən danışıqlarda Qəzzada müharibədən və aclıqdan əziyyət çəkən əhaliyə humanitar yardım məsələsi ən önəmli müzakirə mövzularından biri olub.

Qeyd edək ki, Qəzza Humanitar Fonduna ABŞ və İsrailin 60 milyon dollar dəyərində vəsait köçürmək niyyətində olmalarına baxmayaraq, hər iki dövlət Fələstin dövlətinin müstəqilliyinin beynəlxalq səviyyədə tanınmasına qarşıdır.

**Məqsəd HƏMAS-ı GHF-nin vəsaitlərindən yararlanmağa imkan verməməkdir**

Məsələ ilə bağlı Yaxın Şərq üzrə ekspert Vüqar Ziferoğlu "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, ABŞ və İsrailin Qəzza Humanitar Fonduna vəsait köçürməsi siyasi məqsədlərə söykənib.

"İsrailin ABŞ ilə birlikdə Qəzza Humanitar Fonduna (GHF) 30 milyon dollar ayırmağa razılaşması, əslində, son dərəcə ciddi məqamlarla bağlıdır. İlk növbədə vurğulayaq ki, Tramp administrasiyası İsrailin tələbinə cavab olaraq, senatorlara verilən məlumatlarda İsrailin ABŞ-a bərabər məbləğdə (yəni $30 milyon) vəsait ayırdığını bildirib. Tramp bu məbləği birləşdirərək 60 milyon dollar kimi təqdim edib, lakin faktiki olaraq yalnız 30 dollar milyon təsdiq olunub. Həmçinin nəzərə almaq lazımdır ki, İsrail və ABŞ, GHF vasitəsilə yardımı hərəkətə gətirməklə, köməyin HƏMAS tərəfindən ələ keçirilməsinin qarşısını almağa çalışır - İsraildə və Vaşinqtonda bu əsas arqument olaraq işlənib," - deyə V.Ziferoğlu vurğulayıb ki, GHF institutları kifayət qədər ciddi qorunan mərkəzdə fəaliyyət göstərir: "Eyni zamanda, BMT və bir sıra beynəlxalq QHT-lər GHF-ni məhdud fəaliyyət göstərməsi, fəaliyyətində ölüm hallarının baş verməsi və humanitar prinsiplərə zidd müəyyən fəaliyyətinin olması ilə bağlı tənqid edirlər. GHF-in hüquqi və maliyyə strukturu rəsmi idarəetmədən kənar nəzarət mexanizmləri ilə işləyir və bu isə bir sıra hüquq müdafiəçiləri və BMT üzvləri tərəfindən "siyasi və hərbi məqsədlər üçün istifadə olunan yardım" kimi qiymətləndirilir".

**Siyasi oyunun bir hissəsi**

Ekspert əlavə edib ki, İsrail bu fondu öz nəzarəti altına almaq istəyir. "İsrail isə bu özəl sistemin BMT modelinə alternativ olduğunu vurğulayır. GHF modelinin ciddi tənqidlərə səbəb olmasına baxmayaraq, İsrail bu beynəlxalq yardım strukturunu öz nəzarəti altında saxlamaq və siyasi mesajını davam etdirmək üçün mühüm addım kimi qiymətləndirir. Beləliklə, bu, yalnız insani yardım deyil, həm də siyasi strategiya və diplomatik oyunun bir hissəsi kimi qiymətləndirilməlidir".

*Yunis ABDULLAYEV*

# Ukraynadan Aİ-ni qəzəbləndirən ADDIM

## Brüssel Kiyevə maliyyə yardımını dayandıracaq?

Yaxın zamanda Qərb ilə Ukrayna arasında münasibətlərin gərginləşməsinin şahidi ola bilərik. Qərbin xəbərdarlıqlarına baxmayaraq, Ukrayna hökuməti öz addımından geri çəkilmədi. Belə ki, Ukrayna Ali Radası Ukrayna Milli Antikorrupsiya Bürosunun (NABU) və İxtisaslaşdırılmış Antikorrupsiya Prokurorluğunun (SAP) müstəqilliyinin bərpası haqqında qanun layihəsini qəbul edib - Radanın 331 deputatı bu qanunun lehinə səs verib. Ukrayna KİV-lərinin məlumatına görə, baş nazirin müavini, rəqəmsal transformasiya naziri Mixail Fedorov NABU və SAP-ın səlahiyyətlərinin bərpası məsələsinin həllinə böyük bir komandanın cəlb olunduğunu bildirib. Sənədə əsasən, baş prokurora NABU detektivlərinə məcburi yazılı göstərişlər vermək, onların işlərini digər orqanlara ötürmək (hərbi vəziyyətin xüsusi halları istisna olmaqla), eləcə də SAP prokurorlarının və ya NABU detektivlərinin işinə müdaxilə etmək qadağan edilir. Qeyd edək ki, bu sənəd Ukraynanın 15-dən çox şəhərində etirazlara səbəb olub. Qanun layihəsi Ali Radanın səsverməsinə çıxarılmamışdan əvvəl Avropa İttifaqı və ABŞ-dakı bir çox siyasi dairələr bu qanunu sərt tənqid edirdilər. Aİ-nin yüksək səviyyəli rəsmiləri, o cümlədən bəzi üzv dövlətlərin liderləri Prezident Volodimir Zelenskiyə zəng edərək ona belə bir qanun layihəsinin Ali Radada təsdiqlənməsinin ciddi nəticələr doğuracağı ilə bağlı xəbərdarlıq ediblər. Ekspertlər hesab edirlər ki, Brüssel Kiyevə maliyyə yardımını qismən və ya tam şəkildə dayandıra bilər - 2025-ci ilin sonuna qədər Aİ-nin Ukraynaya növbəti maliyyə yardımı 17 milyard avro civarındadır.



**Qərbin anti-korrupsiya ilə bağlı çağırışları siyasi görüntüdür**

Məsələ ilə bağlı politoloq Tural İsmayılov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Qərb demokratiya və insan hüquqları adı altında yalnız öz siyasi ambisiyalarını güdür. "Qərb uzun illərdir ki, özünü demokratiya və insan haqları müfəttişi kimi göstərməyə çalışır, amma Ukraynadakı hadisələr bunun sadəcə, boş şüar olduğunu göstərir. Avropa İttifaqı və ABŞ müstəqil anti-korrupsiya orqanlarının fəaliyyətini zəiflədən qərarları kifayət qədər diqqətlə izləmədilər, ya da maraqları üzərində bu məsələləri görməzdən gəldilər. Qərb yalnız geopolitik maraqlarına uyğun davranır, əsl demokratik prinsiplərə sadiq deyil. Onların Ukraynaya yardım etməkdə əsas məqsədi demokratiyanı gücləndirmək yox, Rusiyaya qarşı strateji üstünlük əldə etməkdir. Bu yanaşma isə nəticədə həm Ukraynaya, həm də beynəlxalq hüquqa zərbə vurur," - deyə T.İsmayılov vurğulayıb.

**İkili Standartlı siyasət**

Ekspertin sözlərinə görə, Qərbin ikili standartlı siyasəti korrupsiyanın davam etməsinə və siyasi rəqiblərin təzyiqə məruz qalmasına şərait yaradır. "Onlar demokratiya və şəffaflıqdan danışanda sadəcə öz nüfuzlarını qorumağa çalışırlar, reallıqda isə maraqlarına uyğun oyunu davam etdirirlər. Bu isə Avropa və ABŞ-ın Ukraynadakı rolunu tamamilə şübhə altına alır. Müstəqil institutların zəifləndilməsi əslində Qərbin "demokratiya ixracı"nın puç olduğunu açıq göstərir. Əgər bu proseslərə vaxtında müdaxilə edilməsəydi, Ukraynada korrupsiya artardı - indi isə bu artıq reallıqdır".

"Qərbi Ukraynada yalnız öz geostrateji və geosiyasi ambisiyalarına və hədəflərinə nail olmaq maraqlandırır. Bu isə Ukraynanın gələcək demokratik inkişafına ciddi təhlükədir.Yekun olaraq, Qərbin davranışı beynəlxalq hüququn, şəffaflığın və insan haqlarının qorunmasında ciddi nöqsanlar yaradır və onların "demokratiya müdafiəçisi" obrazını korlayır," - deyə T.İsmayılov qeyd edib.

**Münasibətlərə necə təsir edəcək?**

Politoloq Əlimusa İbrahimov qəzetimizə şərhində bildirib ki, Avropa İttifaqının Ukraynaya maliyyə yardımını dayandırması inandırıcı görünmür.

Sözsüz ki, Ukrayna Ali Radası tərəfindən anti-korrupsiya ilə bağlı qəbul olunan qanun Aİ və ittifaqın bəzi üzv ölkələri tərəfindən birmənalı qarşılanmayacaq. Qanun Ali Radada səsverməyə çıxarılmamışdan əvvəl Avropa İttifaqı rəsmi Kiyevə bununla bağlı xəbərdarlıq edib. Ona görə ki, bu qanun layihəsi Aİ-nin daxili qanunvericilik prinsipləri və normalları ilə ziddiyyət təşkil edir. Brüsseldə hesab edirlər ki, belə bir qanun layihəsi ölkədə vətəndaşların istismar olunmasına və korrupsiyaya qarşı lazımi səviyyədə mübarizəninin aparılmamasına gətirib çıxara bilər. Bu qanunun Aİ-Ukrayna münasibətlərinə necə təsir göstərəcəyinə gəlincə, bu barədə indidən proqnoz vermək çətindir. Amma Avropa İttifaqının Ukraynaya maliyyə yardımını dayandıracağı inandırıcı görünmür. Çünki həm Aİ-nin özü, həm də ittifaqın üzv ölkələri Ukraynaya ən böyük yardım edən tərəf hesab olunur. Əgər Aİ-nin və üzv ölkələrin Ukraynaya maliyyə və hərbi yardımı dayanarsa və ya yubadılarsa, bu, Ukraynada çox ağır nəticələrə gətirib çıxaracaq. Bu, rus ordusunun ölkənin dərinliklərinə daha da irəliləməsinə şərait yaradacaq," - deyə Ə.İbrahimov əlavə edib ki, belə bir hal Avropanın təhlükəsizliyini də təhdid altına qoyacaq: "Avropa İttifaqı və üzv ölkələr Ukraynaya yardım etməklə və Kiyevin arxasında durmaqla həm də öz təhlükəsizliyini təmin edirlər. Avropa ölkələrində belə bir fikir formallaşıb ki, Ukraynadan sonra Rusiya üzünü onlara tərəf çevirəcək. Bütün bu amillərə nəzərən, Aİ-nin Ukraynaya maliyyə və hərbi yardımı davam etdirəcəyini hesab edirəm".

*Yunis ABDULLAYEV*

# Altı gün qaldı...

## Donald Trampın Rusiyaya xəbərdarlığı nəticə verəcəkmi?

ABŞ-ın Rusiya-Ukrayna müharibəsinin dayandırılmasına yönəlik təşəbbüslərinin heç bir nəticəsi yoxdur. Halbuki Donald Tramp hələ seçki kampaniyası zamanı prezident seçiləcəyi təqdirdə müharibəni “24 saat ərzində dayandıracağını” vəd etmişdi. Dövlət başçısı seçildikdən sonra, münaqişənin nizamlanması üçün Vaşinqton tərəfindən bir sıra görüş və tədbirlər təşkil edilsə də, prosesdə nəticə yoxdur. Bu səbəbdən də, Tramp bu məsələdə nikbin görünmür.

### Rusiya Ukraynaya hücumları gücləndirib

Əslində, son vaxtlar D.Tramp münaqişə ilə əlaqədar Rusiyadan narazılığını ifadə edir. Bu isə o deməkdir ki, ABŞ Prezidentinin sülh təşəbbüslərinin reallaşmasına başlıca maneə Moskvanın mövqeyidir. Bütün bunların fonunda Donald Tramp hələ iyulun 14-də Rusiya ilə bağlı ciddi bəyanatla çıxış edəcəyini bəyan etmişdi. Və o, iyulun 14-də NATO-nun Baş katibi Mark Rutte ilə Oval kabinetdə keçirilən görüşdə Ukrayna ilə müharibənin 50 gün ərzində dayandırılmasına dair razılıq əldə olunmasa, Rusiyanı tariflərlə cəzalandıracağını demişdi. Sonra o, bu möhləti 10-12 günədək əvəzlədi. ABŞ Prezidenti, həmçinin Rusiyanı ciddi sanksiyalarla hədələmişdi.

Lakin Trampın xəbərdarlıqlarına baxmayaraq, Rusiya Ukraynaya qarşı işğal siyasətini davam etdirir. Son günlər Ukraynanın bir sıra yaşayış məntəqələri qəsb olunub, iri şəhərlər isə raket hücumlarına məruz qalır. İyulun 31-də gecə saatlarında Rusiya ordusu kütləvi hücuma keçib. Ruslar 309 hücum pilotsuz uçuş aparatı və səkkiz ədəd “İsgəndər-K” qanadlı raketindən istifadə ediblər. Düşmənin budəfəki əsas hədəfi paytaxt Kiyev olub. Hücum nəticəsində şəhərin müxtəlif ərazilərində onlarla dağıntı qeydə alınıb, yaşayış binaları dağılıb. Hücum nəticəsində 200 nəfərə yaxın yaralı var, ölənlərin sayı isə 30 nəfərdən çoxdur. Qurbanlar arasında azyaşlı uşaqlar da var.



### Tramp: Rusiyanın etdikləri iyrəncdir

Rusiyanın bu hücumu ABŞ Prezidentini qəzəbləndirib. Belə ki, o, avqustun 8-dək Ukraynaya qarşı müharibənin dayandırılması ilə bağlı razılığın əldə olunmayacağı təqdirdə Rusiyanı sanksiyalarla hədələyib. Rusiya ordusunun Kiyevə kütləvi hücumunun nəticələrini şərh edən Tramp Kremlin hərəkətlərini kəskin tənqid edib: “Rusiyanın etdikləri iyrəncdir”. ABŞ lideri, həmçinin qeyd edib ki, o, sanksiyaların Rusiya Prezidenti Vladimir Putini çəkindirə biləcəyinə hələ əmin deyil, lakin Vaşinqton hər halda onları tətbiq etmək niyyətindədir. “Biz sanksiyalar tətbiq etməyə hazırlaşırıq - bilmirəm, o (Putin - red.) sanksiyalardan narahatdır, ya yox. Onların sanksiyalardan xəbəri var. Mən sanksiyalar və tariflər haqqında hamıdan çox bilirəm. Bunun effekti olubolmayacağını bilmirəm, amma biz bunu edəcəyik”, - deyə ABŞ prezidenti vurğulayıb.

D.Tramp xüsusi elçi Stiv Uitkoffun yaxın günlərdə Rusiyaya səfər edəcəyini də deyib. Səfər xüsusi elçinin İsrailə səfərindən sonra baş tutacaq. Ziyarət ABŞ-ın Ukrayna ilə münaqişəyə son qoyması üçün Rusiyaya verdiyi vaxtın bitdiyi ərəfəyə təsadüf edir.

ABŞ Rusiyaya qarşı ikinci dərəcəli sanksiyaların tətbiqi imkanını da araşdırır. Nəzərdə tutulur ki, Rusiyadan məhsullar alan ölkələrə sanksiyalar tətbiq edilsin. Belə olan halda, Rusiyanın gəlirləri xeyli dərəcədə azala bilər. Tramp Moskvanın Kiyevlə sülh sazişinə nail olmayacağı təqdirdə Rusiyadan neft alan ölkələrə 100 faizlik rüsumlar tətbiq etməklə hədələyib. ABŞ liderinin bu xəbərdarlığından sonra Hindistanın dövlət neft emalı zavodları Rusiya neftinin alışını dayandırıb. Dünyanın üçüncü ən böyük neft idxalçısı olan Hindistan Rusiya neftinin dəniz yolu ilə ən böyük alıcısıdır. Lakin artıq “Indian Oil Corp”, “Hindustan Petroleum Corp”, “Bharat Petroleum Corp” və “Mangalore Refinery Petrochemical Ltd” dövlət neft emalı zavodları Rusiyadan neft alışını dayandırıb. Bu zavodlar Rusiya neftini əsasən Yaxın Şərq nefti ilə əvəzləyib.

### Kiyevə yeni silahlar veriləcək

Rusiyaya qarşı sanksiyalardan əlavə, Vaşinqton Kiyevi silahlandırmağa davam edəcək. Artıq ABŞ Konqresinin Senatına Ukraynaya 54,6 milyard dollar məbləğində əlavə yardım ayrılması barədə qanun layihəsi təqdim edilib. Bu barədə yuxarı qurumun Xarici İşlər Komitəsinin məlumatında deyilir. Qanun layihəsinin müəllifləri komitənin üzvləri demokrat Cinn Şahin (Nyu-Hempşir ştatı) və respublikaçı Lisa Murkovskidir (Alyaska ştatı). Layihəyə görə, 55 milyard dollara yaxın yardım Ukraynaya 2026-cı (1 oktyabr 2025-ci ildə başlayacaq) və 2027-ci maliyyə illəri ərzində veriləcək.

Qanun layihəsi Ukraynaya birbaşa hərbi yardımın, habelə ABŞ-ın hərbi-sənaye sektoruna investisiyaların ayrılmasını nəzərdə tutur. Bundan əlavə, onun müəllifləri Ukraynaya yardım üçün ABŞ-da dondurulmuş Rusiya aktivlərindən əldə olunan gəlirdən istifadəni təklif edirlər. Senatorlar Ukraynaya hərbi yardım üçün 30 milyard dollar ayırmağı, xarici ölkələrə Amerika silahlarının alınması üçün qrant və kreditlərin verilməsini nəzərdə tutan “Foreign Military Financing” mexanizmi çərçivəsində Kiyevə 3 milyard dollar verməyi nəzərdə tuturlar.

Bundan əlavə, ABŞ Müdafiə Nazirliyi ölkənin böyük silah istehsalçısı olan “RTX Corporation”ın törəmə bölməsi “Raytheon” şirkəti ilə Ukrayna və bir sıra digər ölkələrə hava-hava sinfinə aid AMRAAM (Advanced Medium-Range Air-to-Air Missile) aviasiya raketlərinin verilməsi haqqında müqavilə bağlayıb. Bu barədə nazirliyin məlumatında deyilir: “Raytheon Technologies Corp.”un bölməsi olan “Raytheon” şirkəti 3,5 milyard dollardan çox olmayan məbləğdə qeyri-müəyyən müddətli müqavilə bağlayıb”. Pentaqon AMRAAM raketlərinin, AMRAAM telemetrik sisteminin istehsalının, həmçinin istehsala texniki dəstək üzrə digər tədbirlərin nəzərdə tutulduğunu bildirib.

Bütün bunlar ABŞ-ın Rusiyaya təzyiqlərinin göstəricisidir. Son 6 gün ərzində Moskva Vaşinqtonun atəşkəs təklifini qəbul etməsə, ciddi təzyiqlərlə üzləşəcək. Hər halda, Trampın bəyanatları bunu deməyə əsas verir.

*N.BAYRAMLI*

---

## Paris Yaxın Şərqə “xaç yürüşü”nə hazırlaşır?

# Aİ-də liderlik uğrunda mübarizə...

## Fransanın Fələstin planı: liderlik ambisiyalarının yeni aləti

Aİ daxilində uzun illərdir ki, davam edən “liderlik” marafonu hələ də davam etməkdədir. Post-Merkel dövründə bu marafon daha da qızışıb - xüsusilə, Böyük Britaniyanın Aİ-ni tərk etməsindən sonra Almaniya-Fransa “dueli” bütün sahələr üzrə özünü əks etdirib. Olaf Şolts dövründə bu məsələ bir az səngisə də, görünən budur ki, mübarizə yenidən aktiv fazaya qədəm qoyacaq. Bunun bir səbəbi isə Britaniyanın yenidən Aİ-yə qayıtmaq perspektivi ilə izah olunur.

Qeyd edək ki, müəyyənləşdirdiyi və yürütdüyü həm daxili, həm də xarici siyasət kursu iflasa uğrayan, ölkəsini sosial problemlərin cənginə “atan”, eləcə də irqçiliyin, dini-irqi ayrı-seçkiliyin daha da artmasına rəvac verən Emmanuel Makron bu “mübarizədə” önə çıxmaq üçün müxtəlif manipulyasiyalara əl atır. Fransa prezidentinin “Fələstin sevgisi” də məhz buradan qaynaqlanır. Xatırladaq ki, Makron “X” sosial şəbəkəsində bildirib ki, Fransa BMT Baş Assambleyasının (GA) sentyabrda keçiriləcək sessiyasında Fələstin dövlətini rəsmən tanıyacaq. “Mən qərara gəldim ki, Fransa Fələstin dövlətini tanıyacaq. Mən bunu bu ilin sentyabrında BMT Baş Assambleyasında təntənəli şəkildə elan edəcəyəm. İndi ən vacibi Qəzzada müharibəni dərhal dayandırmaq və mülki əhaliyə yardım göstərməkdir”, - o qeyd edib.

Onun sözlərinə görə, hazırda Fələstinin HƏMAS hərəkatının demilitarizasiyası, həmçinin Qəzzanın təhlükəsizliyini və bərpasını təmin etmək lazımdır.

### Əsas hədəflər...

Bəli, Fransanın Fələstin siyasəti humanitar diplomatiyadan daha çox siyasi-ambisiyalı strateji platforma xarakteri daşıyır. Bu siyasət bir neçə məqsədi hədəfləyir:

- Aİ-də liderliyi ələ almaq və Almaniya və Britaniya kimi oyunçularla rəqabət aparmaq;
- Yaxın Şərqdə tarixi təsir zonalarını bərpa etmək;
- Qlobal Cənubda nüfuz qazanmaq və müstəqil Avropa aktoru imici formalaşdırmaq;
- Daxili siyasi balans və immiqrasiya məsələlərini yönəltmək.

Fransanın bu planı Fələstinin müstəqilliyinə deyil, daha çox öz gələcəyinə və Aİ daxilində güc əldə etməyə hədəflənir.



Fransanın bu “mövqeyi” bir çox istiqamətlərdən izah olunur. Məsələn, bir çox siyasi ekspertlər bunu Parisin Yaxın Şərqə müdaxilə üçün özünə siyasi vasitə hazırlaması kimi izah edir. Onlar bildirirlər ki, Fransanın Fələstin məsələsində aktiv mövqe sərgiləməsi tarixi kontekstdə də anlam qazanır -

### Kolonializmə qayıdış planı...

XX əsrin əvvəlində Fransa Suriya və Livanı Says-Piko sazişi çərçivəsində öz mandatı altında idarə edirdi. Bu ölkələrin müstəqillik qazanması ilə Fransanın Yaxın Şərqdəki mümkün varlığına da son qoyuldu. Yeni dönəmdə Parisin Fələstin məsələsinə xüsusi həssaslıqla yanaşması isə yalnız “humanitar dəyərlərə” söykənmir. Tam əksinə, Yaxın Şərqdə yenidən təsir zonası formalaşdırmaq, xüsusən də Ərəb dünyasında nüfuzunu artırmaq məqsədi daşıyır. Makron bu yolla həm də Aİ-nin artıq bir neçə ildir ki, bölgədə yox olan nüfuzunu yenidən üzə çıxarmağa çalışır - amma Fransa prezidenti buna nail olduğu təqdirdə “nailiyyəti” Aİ adına Fransanın “ayağına” yazacaq.

Makron administrasiyası Fələstin məsələsində fəallıq göstərməklə həm regional dövlətlər (Səudiyyə Ərəbistanı, İordaniya, Misir), həm də İslam Konfransı Təşkilatı çərçivəsində Fransaya müsbət baxış formalaşdırmaq, post-kolonial münasibətlərdə yeni səhifə açmaq istəyir. Bu isə Fransanı həm ərəb kapitalı, həm də diplomatik güc baxımından daha avantajlı mövqeyə gətirə bilər.

### Makronun ifşası...

Maraqlıdır ki, Makronun “Fələstin sevgisi”nin əsl mahiyyəti heç də gizli qalmayıb. Dünyanın bir sıra siyasət adamları və KİV-lər bu məsələyə münasibət bildirərək bunu Makronun yeni planı adlandırıb. Məsələn, Türkiyənin “Tercüman” nəşrinin analitik materialında qeyd edilir ki, Parisin Fələstin Dövlətini tezliklə tanıyacağı ilə bağlı bəyanatları fələstinlilərə dəstək məqsədi daşımır. Əksinə, beynəlxalq gündəmdə parçalanmanın müşahidə olunduğu müasir Avropada Fransanın mövqeyini gücləndirməyə yönəlib. Prezident Emmanuel Makron Qərbdəki fələstinpərəst əhvali-ruhiyyədən istifadə etməyə və bu yolla qitədə liderlik uğrunda yarışda Almaniya və Böyük Britaniyadan irəli çıxmağa çalışır. “Makronun hesablaması belədir ki, Berlin və London ictimaiyyətin təzyiqi nəticəsində Parisin ardınca gedərək Fələstin Dövlətini tanımağa qərar versə, “Fransa artıq beynəlxalq arenada öz “rəqiblərindən” xeyli irəlidə olacaq”, - deyə qeyd olunub.

Qəzet, həmçinin Yaxın Şərqin bəzi ərazilərinin vaxtilə Fransa mandatı altında olduğunu da xatırladır. “Parisdə müstəmləkəçilik dövrünü unutmayıblar və bu fonda Avropa İttifaqında “birincilik” uğrunda mübarizə aparırlar. İlk mərhələdə Makron administrasiyası Yaxın Şərq ölkələrinin siyasi dəstəyini qazanmağa çalışacaq, daha sonra isə söhbət iqtisadi dividendlərdən gedəcək”, - deyə nəşr vurğulayır. Qeyd olunub ki, Avropanın özündə, o cümlədən Fransada da Makronun səmimiyyətinə şübhə ilə yanaşanlar az deyil.

Qeyd edildiyi kimi Makronun Fələstin dövlətini tanıyacağını elan etməsi daha çox Aİ daxilində liderlik uğrunda geosiyasi avantaja çevrilmək məqsədi güdür. Hazırda Aİ-nin dominant gücü kimi Almaniya görünür, lakin Almaniyanın Yaxın Şərq məsələsində “daha ehtiyatlı və passiv” mövqeyi Fransa üçün boşluq yaradır. Bu boşluğu “cəsarətli diplomatik jestlərlə” doldurmaq istəyən Fransa özünü Aİ-nin “qeyri-rəsmi vicdanı və lideri” kimi göstərmək niyyətindədir.

Britaniya isə “Brexit”dən sonra Aİ-dən ayrılsa da, son aylarda Aİ ilə müəyyən yaxınlaşmalar müşahidə olunur. Fransanın bu təşəbbüsü həm də Britaniyanın potensial Aİ-yə təsir gücünü neytrallaşdırmaq üçün də hesablanıb.

### Parisin yoxsa Aİ-nin “iradəsi”?

Burada ən mühüm məqamlardan biri də Aİ-nin xarici siyasətdə ortaq və vahid mövqe nümayiş etdirməkdə çətinlik çəkməsidir - Makron yaranan situasiyadan istifadə edərək artıq “öz adından danışmaq” imkanı əldə edib. Fələstin məsələsi bu mənada, ideal vasitədir: humanitar, hüquqi və diplomatik yönləri ilə kompleks, lakin bir çox Aİ ölkəsinin ehtiyatla yanaşdığı bir sahə olaraq Fələstin üzərindən Fransa özünün dominant rolunu sübut etmək niyyətindədir. Fransa bu boşluqda təşəbbüs irəli sürməklə həm daxildəki passivliyi pozur, həm də Aİ-nin xarici siyasətində “lider ölkə” roluna yiyələnməyə niyyətlənir. Makronun bu siyasəti bir növ “qaydaları müəyyənləşdirən Avropa” ideyasının Fransanın iradəsinə tabe olmasını önə sürür.



### Daxilə mesaj: Aİ içində güc mərkəzi...

Vurğulandığı kimi, Makronun Fələstinlə bağlı qərarlarının alt mahiyyətində həm də daxili auditoriya üçün mesaj gizlənir. Fransada artan müsəlman əhalisi, anti-immiqrasiya çağırışları və radikal sağın yüksəlişi, dini ayrı-seçkiliyin güclənməsi fonunda Makron özünü həm müsəlmanlara qarşı ədalətli, həm də liberal-humanist dəyərləri qoruyan lider kimi göstərməyə çalışır. Fələstin dövlətinin tanınması bu mənada, seçki strategiyası və sosial balans vasitəsi rolunu da oynayır.

Paralel olaraq Makron Fələstin məsələsində ABŞ və İsrailin tənqidlərinə rəğmən, açıq-aşkar fərqli mövqe sərgiləməklə Avropanın “müstəqil strateji aktora çevrilməsi” vizyonunu da gücləndirir. Bu addım eyni zamanda NATO daxilindəki ziddiyyətləri, ABŞ-Avropa münasibətlərindəki “asılılıq problem”nin həllində Fransanın diplomatik kartı sayılır. Fələstin dövlətini tanımaqla Fransa “Vaşinqton nə düşünürsə, biz onu təkrarlamırıq” mesajını verir. Bu da xüsusən anti - Qərb mövqeyində olan ölkələrin Fransaya olan rəğbətini artırmaq və multipolar dünya quruculuğunda Avropanı lider mövqeyə çıxarmaq istəyi ilə izah olunur.

*P.İSMAYILOV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Şənbə üçün nəzm



**Bənazir Bhutto ölməmişdi**

“Üç keçi” nağılı “üçbaşlı əjdaha”ya
çevrildi ailəmiz dağılanda
Gecə məni “Bayu-bayu” ilə yatırıb
səhər anamın yoxluğu ilə oyatdılar
Anasının narıncı koftasını iyləyib yatan bu
uşağı birdən “narıncı inqilablar”ın
qucağına atdılar
Sonra həyat məhkəmə çəkici ilə döydü
sinəmi
Ürəyimi açıb içimdən çıxıb getdi
uşaqlığım
Son dəfə dolmuş gözlərlə
boş ömrümə baxıb getdi uşaqlığım



Qapının ağzında ayaqqabının biri
azaldı
Atam “əcəb evimiz genişləndi e”
deyib təsəlli doldurdu cibimizə
Anam evdən getdiyi gün bizi atıb
çölə çıxdı ev,
həsrət qaldıq evimizə

Hələ bu zəhrimar ayrılıq qapımıza
gəlməmişdi
Hələ Bənazir Bhutto ölməmişdi -
Şərq anasız qalmamışdı
mən anasız qalanda
Dominodan qurduğumuz evlər
dağılanda ağlayan uşaqlar idik
Bəs görəsən, niyə susduq ailəmiz
dağılanda?

“Ananı çox sevirsən, ya atanı?”
sualını verənlər
“Ananla qalırsan, ya atanla?” sualı ilə
üstümə gəldilər
Qışqırıb “Bu dünyada anasızlıqdan
böyük atasızlıq yoxdu” dedim
Bacım ağlamağımı eşitməsin deyə,
gecələr anamın paltarını dişləyib
hönkürdüm,
hər gecə onun narıncı koftasını güvə
kimi dişimə sıxıb yedim



Yamaqlı şalvarımı tikdikcə qırış
düşdü anamın əllərinə:
söküldü əlinin dərisi
Ayaqlarının şişmiş yaşıl damarında
öldü bütün flora
Qapımızın ağzında canını tapşırdı
fauna
Atam siqaretin tüstüsüylə öyrətdi
bizə gələcəyin dumanlı olacağını



Sən gedəndən sonra qapımızı açan
olmadı deyə
o xəstə “bobik” də ağzını açıb bir
kəlmə hürmədi
Ana, mən Səddamın edamını gördüm
Bircə qardaşımın nə vaxt böyüyüb bu
yaşa çatdığını görmədim.

Ailəmiz dağılanda öyrəndim ki,
burnunda ana qoxusu,
gözlərində ana yuxusu gəzdirən
qızlar
mətbəxi əzbər bilirlər
Öyrəndim ki, anasının ömründə
yıxılan kişilər
sevgini əzbər ölürlər.



Atamın köynəklərini bacım
ütüləməyə başladı ailəmiz dağılanda
Beləcə, bacım “üçbucaq teoremi”ni
ütüdən
“Çevrənin raduisu”nu qazandan
Nidanı atamın çəliyindən
Nöqtəni də anamın yoxluğundan öyrəndi.

**Qadın uzaqlığı**

Gedişindən bir gün ötdü
İndi saat on altıdır.
Belə göz yaşından sonra
Daha ömür sualtıdır.

Mənə bir pislik elə
Səni asan unutmaqçün.
Bircə əlcəyini saxla
Göz yaşımı qurutmaqçün.

Qucağım boşdur...qırıram
Köynəyimin hər düyməsin
Çobanyastığı falıtək:
“Gəlsin, yoxsa gəlməsin?”

Ən təmiz sığalımı da
Aparmısan öz üzündə.
Astara çevrilib evim
Qalmışam çölün düzündə.

Gəl bu axşam geri qayıt
Qucağından otaq düzəlt.
Uzaqlardadır xoşbəxtlik
Saçlarından uzaq düzəlt.

**Unutmağın resepti**

Hərdən onun toxunduğu yerlər
qopar bədənindən
hissə-hissə yoxa çıxarsan hərdən
Hərdən “qayıt, ölürəm” kimi oxunar
ona yazdığın bircə “Salam. Necəsən?”
Sıxılarsan...
Bilməzsən hara qoyasan bu nəhəng
ayrılığı
Görərsən saçların onun çiyni üçün darıxır
Ayrılıq sevgiyə yox, ölümə daxildi,
qızım...
Bunu da öyrənmişdin uşaqlıq paltarından
Gör ayrılığın üstündən neçə payız keçib e,
onun qoxusu hələ də çəkilmir paltarından
Hərdən ovulub gedərsən...
Burnunun ucu göynəyər tanış qoxudan
ötrü
Yağış yağar, görərsən ki,
altında bir boş yer qalıb əlindəki çətirin
Hərdən boynunu üşüdər onun aldığı şərf
də
barmaqların əllərindən sırsıra tək sallanar.
Boş küçədə öskürər xatirələr astaca
Cədvəllərdə yazılar: “mənfi sənsiz
dərəcə”
Hərdən heç nə dəyişməz...
Bir görüş yeri boyda boşluq qalar içində
Hərdən büdrəyərsən... yıxılarsan
xatirələrin yanından keçəndə...

Sevincimi sənə verim
Qoy üzün gülsün həmişə.
Mən yaşamağa yox...səni
Xoşbəxt etməyə gəlmişəm.

Gəl həyat yenə başlasın
Dünya da sənə oxşasın
...və sən olsun dörd bir yanım
Hər gün, hər axşam səslənim:
“Ay balaca xanımım...”

**Qadın təkliyi**

O vaxt yelləndiyin ağac budağı
Məktub səhifəsitək qayıdar sənə.

Sonra xatırlanar gülüş yerləri...

Durub axtararsan öpüş yerlərin
Sızıldar əlində bir dodaq səsi
Pozar sükutunu bir uzaq səsi
...və səni üşüdər, elə üşüdər
Qəfil xatırlanan bir qucaq səsi.

Saçının rəngini dəyişərsən tez
Güzgüdə daraqla döyüşərsən tez
Üzün də dəyişər, amma gözündə:
Durub sənə baxar nəhəng onsuzluq

...və mənfi sonsuzluq, mənfi sonsuzluq

Kişi köynəyinə baxıb çaşarsan
Qəfil bir hönkürtü haqlayar səni.
Mən alan eynəyə ilişər telin
Saçın xatirəyə bağlayar səni.

Birgə ağrıyarıq... bax elə mən də:

Vağzalda çəkdiyin qatar rəsmini
Pencəyin cibinə büküb qoymuşam
Bax elə o gündən, ağrılı gündən
Ürəyimdən qatar keçir hər axşam.

Daha barmaqlarım əlimə gəlmir...

Bu yarım gülüşdən, yarım sevincdən
Mənə də, sənə də ömür düzəlmir.
Yaxşı iş tapırsan... geyim seçirsən
Alınmır, yenə də ömür düzəlmir.

Tutduğun əlimi aparmısan da
Bir qolum yanımda odun təkliyi.
Sənin də ömrünün bircə adı var:
“Boşluqlar içində qadın təkliyi”.

**Tanışlıq tarixi**

Yastığımda başının yeri qalıb
İndi ömrü yaşamaq o boşluğa yıxılmaqdı
hər axşam
Belə soyuq tənhalıqla yatmaq da
çarpayıya uzanmaq yox, dağılmaqdı hər
axşam

Mən hər gecə üstünü örtməyimi
saçını qurulamağımı görürəm yuxuda
Sənsə o qədər yoxsan ki:
quruyub mətbəxə dağıtdığın su da.

Bircə əl-üz dəsmalımda dodaq izin
qalmışdı
Asmışdım gülüşünün şəkli kimi divardan.
Daha o da silinib... deyən daha gülmürsən
Sığınırsan yorğun axşam bircə qucaq
sözünə.

Tanışlıq tarixi, görüş saatı
telefon nömrəsi, köynək ölçüsü
- hamısı unudulur, hamısı itir
Rəqəmlərlə yaşayıb böyüyən sevgilər
sonda bir sözlə bitir.

Unudulur hər şey, cizgilərin də
Şərab içməyin, yemək yeməyin də
Bir söz deyim: əgər qalsaydın,
mən səni tanıyardım getməməyindən.

**Moskva göz yaşlarına inanmır**

Zen, bişirdiyin keksə daraşmış qarışqalar
da öldü
Daha səndən heç nə qalmadı bu şikəst
evdə
Daha mən öyrəndim ki, tarix üşüməyi
qucaqlaşmaqçün
Sevginisə bir ömür uzaqlaşmaqçün
yaradıb

Uşaqlıqdan, gənclikdən, qocalıqdan başqa
bir də onsuzluq dövrü olur insan ömrünün
Yalandı, Zen... Yalandı
insanı qocalıq yox, onsuzluq dövrü
öldürür

Qucaqladığım qadınları birləşdirib
özümə bir ana düzəldə bilmədim...

Bəzən bu nəhəng ömür bircə sözdən
ibarət olur: “Gəlmədi...”

Zen, qadını ən çox atası unudur
Ən çox xatirələr xəstələndirir adamı
İştahın olmur yemək yeməyə,
yaşamağa,
...gəlməyə

Nədənsə metro çıxışlarından heç vaxt
“O”na tərəf çıxmadıq
Heç vaxt tapa bilmədik unutmağın
reseptini
Əlimizdə onu axtarmaq öldü
Ayağımızda çıxıb gəlmək...

Sənə gülmək gətirəcəm, qızım, doyunca
gülmək...

Daha buruq saçlar unutmasın
Sən də unutma, Zen, sən də unutma:
Ayrılıq haqqında deyilmiş ən gözəl
söz - ayrılmamaqdı.

***Aqşin Evrən***



# 127 yaşlı Azərbaycan kinosu

## Milli kinomuzun tarixi, bu günü və gələcəyi...

1898-ci il avqustun 2-də Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişon özünün lentə aldığı “Bibiheybətdə neft fontanı yanğını”, “Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi”, “Qafqaz rəqsi” xronikal sənədli və “İlişdin” adlı bədii süjetlərini nümayiş etdirmişdi. Həmin gün milli kinonun yaranma günü sayılır.

Bu gün milli kinomuzun yaranmasından 127 il ötür. Bu illər ərzində çətin, mürəkkəb və şərəfli bir yol keçən Azərbaycan kinosu xalqımızın tarixini, milli-mənəvi dəyərlərini, insan və onun cəmiyyətdəki mövqeyini ekranlara gətirməklə bərabər, həm də dəyərlərimizi qoruyub.

Mədəniyyət sahəsinə daim diqqət və qayğı göstərən Heydər Əliyev milli kino sənətimizə həmişə yüksək dəyər verirdi. Ümummilli lider Azərbaycan xalqının bir çox nəsillərinin kino sənəti ilə tərbiyələndiyini, kinonun təsiri altında formalaşıb, inkişaf etdiyini və mədəniyyətə qovuşduğunu qeyd edirdi. O, xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətlərinin əvəzsiz olduğunu vurğulayırdı. Bu baxımdan Heydər Əliyevin “Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında” 2000-ci il 18 dekabr tarixli Sərəncamına əsasən, hər il avqustun 2-si ölkəmizdə “Azərbaycan Kinosu Günü” kimi qeyd olunur.

Azərbaycan kinosu hər zaman fərqliliyi, milliliyi özündə birləşdirib. Ötən əsrin70-80-ci illərin birinci yarısında Azərbaycan kinosu özünün intibah dövrünü yaşayırdı. Bu illərdə Azərbaycan kinematoqrafçılarının yaratdıqları dəyərli filmlər milli-mənəvi dəyərlərin təbliğində, milli özünüdərk duyğularının oyadılmasında, milli şüurun formalaşmasında və yetişməkdə olan gənc nəslin tərbiyəsində mühüm rol oynamışdı. Həmin illərdə Azərbaycanda 110 bədii, 500 sənədli və elmi-kütləvi, eləcə də 44 cizgi filmi istehsal olunmuşdu. “Bir cənub şəhərində”, “Bizim Cəbiş müəllim”, “Dəli Kür”, “Şərikli çörək”, “Dərviş Parisi partladır”, “Yeddi oğul istərəm”, “Axırıncı aşırım”, “Nəsimi”, “Dədə Qorqud”, “Babək”, “Nizami” və başqa bədii filmlərimiz bu illərdə çəkilib. Bu filmlərimizi fərqləndirən əsas cəhətlərdən biri də xalqımızın həyatına, başlıcası isə çoxəsrlik tariximizə, adət-ənənələrimizə, milli dəyərlərimizə daha dərindən nüfuz etməsində idi.

Sovet Azərbaycanının ilk kinolenti 1923-cü ildə çəkilən “Qız qalası” filmidir. Film o dövrdə çoxlu tənqidlərə məruz qalıb. Həmin dövrdə yalnız “Bakinski raboçi” qəzeti filmə belə münasibət bildirmişdi: “Qız qalası” filminin çəkilişi kino sənətinin ilk inkişaf dövrü üçün səciyyəvidir və Sovet Azərbaycanının birinci tammetrajlı bədii filmidir”.

1924-cü ildə lentə alınmış “Əvəz-əvəzə” filmi Azərbaycanın ilk detektiv filmidir. Film Qafqaz dağlarında xarici kəşfiyyatın fitnə-fəsadlarından danışır. Ekran əsərində sovet çekistlərinin mübarizəsi ön plana çəkilib. Filmin bəzi epizodları isə Kislovodskda lentə alınıb.

Azərbaycan kinosu tarixində ilk böyük ekspedisiya çəkilişi 1927-ci ilin sonlarında lentə alınmağa başlayan “Hacı Qara” filmidir. Bu filmin çəkilişlərində bir neçə məkandan istifadə edilib. Film Ağdamın Muradbəyli, Şuşanın Xəlfəlidərə və Daşaltı kəndlərində, Suxumidə lentə alınıb. 1928-ci ildə Bakı kinofabrikinin yeni istifadəyə verilmiş kinopavilyonunda kütləvi səhnələr, mürəkkəb çəkiliş manerası tələb edən bazar, dükan epizodları lentə alınıb.

“İsmət” filmi Azərbaycan kinosunun sonuncu səssiz filmidir. Əsər M.Mikayılovun rejissorluğu ilə 30-cu illərdə ekranlaşdırılıb. O illərdə Azərbaycan qadınının taleyindən həyəcanla, eyni zamanda, iftixar hissi ilə danışan film təkcə sənət əsəri kimi deyil, həm də həyati fakt kimi əhəmiyyət kəsb edir.

Müstəqillik illərində milli kinomuza xüsusi diqqət yönəldilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərində məhv olmaq təhlükəsi ilə üzləşən incəsənətin bu vacib sahəsi 1993-cü ildə onun hakimiyyətə qayıdışı ilə yeni inkişaf mərhələsinə qədəm qoydu. 1998-ci il 19 avqust tarixdə “Kinematoqrafiya haqqında” Qanun qəbul edildi, bununla da dövlət kinematoqrafiyasının hüquqi bazası yaradıldı. 1996-cı ildə isə Azərbaycan Dövlət Film Fondu yaradıldı, filmlərin qorunması təmin edildi.

Bu gün Azərbaycan kinosu özünün yeni inkişaf mərhələsini yaşayır. Əlbəttə, hər bir sahə kimi kino sənətinə də dövlət qayğısı nəzərəçarpacaq dərəcədə hiss edilir. Dövlət tərəfindən ayrılan maliyyə yardımları ölkəmizin kino istehsalının daha da inkişaf edəcəyinə əminlik yaradır. Azərbaycan kinosu zamanın böyük sınaqlarından şərəflə çıxaraq xalqa xidmət yolunu tutub. Tamaşaçıların milli kinoya marağı xeyli dərəcədə artıb. Bütün bunlar 127 yaşı olan Azərbaycan kinosunun sürətli tərəqqi dövrünü yaşadığını və qarşıda böyük inkişaf perspektivlərinin olduğunu təsdiqləyir.

***Yeganə***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4560
Sifariş: 1603
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova